www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 may 2015-ci il Cümə axşamı № 98 (6126) Qiymәti 40 qəpik

**Xəbər**

## Ağcabədidə 30 yaşlı kişini baltalayıb öldürdülər

yazısı səh.14-də

**Gündəm**

### Ərdoğanın Putindən ilk ciddi "soyqırım" revanşı



Türkiyə prezidenti Kreml başçısının İrəvan səfərinə görə 9 may paradını boykot edib Qərbin yanında yer aldı; Ankaranın Moskvaya sürprizlərinin davamı da gələ bilər...

yazısı səh.7-də

### Zakir Həsənov Türkiyədə ordu generalları ilə görüşdü

yazısı səh.2-də

### Vaşinqton kürd dövlətinə "yaşıl işıq" yandırmadı

yazısı səh.12-də

*Zahid Oruc:*

### "6 postsovet ölkəsi indi Qərbin maraqlarını Rusiya ilə uzlaşdıra bilməməsinin ağrısını çəkir"

yazısı səh.6-da

*İqbal Ağazadə:*

### "İqtidara sual verirsən, deyir, demokratiya belə olur"

yazısı səh. 8 və 9-da

### Neft bahalaşır - son qiymət 70 dollar

yazısı səh.11-də

*Alim Qasımov:*

### "Məni təhqir edirdilər ki, niyə belə oxuyursan..."

yazısı səh.10-da

### AzTV-dəki müavin dəyişikliyinin pərdəarxası məqamları

yazısı səh.11-də

### Bakıda sürücü yol polisini döydü

yazısı səh.14-də

### Bakıda öldürülən polisin ailə üzvləri danışdı - yeni təfərrüat

yazısı səh.12-də

### Şəhid anasının torpağını əlindən almaq istəyirlər

yazısı səh.15-də

## Avropadan "Şərq tərəfdaşı"na qeyri-səmimi münasibət

# AVROPA BİRLİYİ PUTİNİN AZƏRBAYCANA QARŞI PLANINDA

AB öz məhdud maraqlarını Bakıya qəbul etdirmək üçün Rusiya ilə bir cəbhədə durmağa qərar verdi; DESFA-nın məhz SOCAR-a verilməsi üçün Yunanıstana ciddi təzyiq edən qurum indi nədən mövqeyini dəyişib?




yazısı səh.5-də

# Müsavat başqanının müavininə hökm oxundu - 6 il yarım...

Fərəc Kərimli son söz deməkdən imtina etdi; Müsavat rəhbərliyi qərara sərt reaksiya verdi

yazısı səh.3-də



*Əjdər Tağızadədən Sabir Rüstəmxanlıya şok ittihamlar:*

### "DAK yoxdur, DAK-ın skeleti var"

yazısı səh.4-də



*Arif Hacılı:*

### "Təşkilatlarımıza yeridilmiş agentura səti üzərimizə gəlir"

yazısı səh.6-da



### Əli Həsənovdan yüksək çinli məmurlara qarşı şok ittihamlar

yazısı səh.2-də

**7 may 2015**




# Əli Həsənovdan sensasion açıqlamalar

## O, ABŞ, Fransa və Rusiyanı sərt ittiham etdi: “Niyə dövlət başçısının ətrafında olan bəzi insanlar bu ölkələri tənqid etmirlər. Ona görə ki, həmin insanların o ölkələrdə biznesləri var”

**ATƏT-in Minsk Qrupunun həmsədrləri olan ABŞ, Fransa və Rusiya son 20 il ərzində Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi istiqamətində heç bir iş görməyib. "Trend"in məlumatına görə, bu barədə Azərbaycanın Baş nazirinin müavini, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov dünən Ümumilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə bağlı çıxışında deyib. Ə.Həsənov qeyd edib ki, Azərbaycanın yeganə həll olunmamış problemi Dağlıq Qarabağ problemidir: “Dağlıq Qarabağ məsələsinin həll olunmamasının səbəbi ABŞ, Fransa və Rusiyanın ədalətsiz mövqeyidir. Bu münaqişə həll olunmayana, qaçqın və məcburi köçkünlər öz torpaqlarına qayıtmayana qədər mən bu dövlətləri tənqid edəcəm”.**

Ə.Həsənov vurğulayıb ki, başda Qorbaçov olmaqla, bu problem Sovet İttifaqı tərəfindən yaradılıb, Yeltsin davam etdirib və bu gün də qalmaqdadlr.

Ə.Həsənov Azərbaycanın bəzi yüksək rütbəli məmurlarını da bu məsələdə səssiz qalmaqda qınayıb: “Niyə dövlət başçısının ətrafında olan bəzi insanlar bu ölkələri tənqid etmirlər. Ona görə ki, həmin insanların o ölkələrdə biznesləri var”.

Musavat.com qeyd edir ki, komitə sədri zaman-zaman öz komanda yoldaşlarına qarşı bu cür sərt ifadələr işlədir. Bundan əvvəl o, ölkədəki narkomanların arasında yüksək mənsəbli məmurların övladlarının da olduğunu bildirmişdi.

# İcra hakimiyyətinin maşını körpüdən aşdı: 2 ölü, 4 yaralı



**Qax Rayon İcra Hakimiyyətinə məxsus avtomobil qəzaya uğrayıb. Qax Rayon İcra Hakimiyyətindən publika.az-a verilən məlumata görə, idarəyə məxsus 34 AA 054 dövlət nömrə nişanlı QAZ-3110 markalı avtomobil Kürmük çayı üzərindəki körpüdən aşıb. Nəticədə avtomobildə olan 5 nəfərdən ikisi - icra hakimiyyətinin əməkdaşı Şahid Əhmədov və Vüqar Paşayev həlak olub. Qax Rayon İcra Hakimiyyətinin əməkdaşı Azər Qazaxov, Firudin Yusifzadə və Asif Məmmədzadə isə müxtəlif dərəcəli xəsarətlərlə xəstəxanaya yerləşdirilib.**

# Sürücü əsəbiləşib qayınanasını maşınla vurdu

**Bakıda 30 yaşlı gənc qayınanasını maşınla vurdu. Avtosfer.az-ın “qafqazinfo”ya istinadən erdiyi xəbərə görə, hadisə Suraxanı rayonu Zığ qəsəbəsində baş verib. İ.Süleymanov küçəsində yaşayan 1985-ci il təvəllüdlü Cavid Həsənov idarə etdiyi “Mercedes” markalı avtomobillə xuliqanlıq zəminində keçmiş qayınanası, 1968-ci il təvəllüdlü Solmaz Hacıyevanı vurub.**

## DÜZƏLİŞ

**“Yeni Müsavat”ın 6 may sayında Ümid Partiyasının sədri İqbal Ağazadənin müsahibəsində yanlışlığa yol verilib. Belə ki, müsahibəyə aidiyyəti olmayan “İndiki dünyada Birləşmiş Ştatlarla qarşı-qarşıya gələ biləcək yeganə güc Çindir. Bir də Azərbaycan” cümləsi İqbal Ağazadənin adından gedib. Qeyd edirik ki, bu fikirlərin məlum müsahibəyə heç bir aidiyyəti yoxdur. Yanlışlığa görə üzr istəyirik.**

“Elm” tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Kütləvi idman yarışında biletləri baha satanlar cəzalanacaq



**Prezident İlham Əliyev İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən İnzibati Xətalar Məcəlləsində aşağadakı dəyişikliklər edilib:**

Maddə 224-1. Kütləvi idman tədbirlərinə və idman yarışlarına giriş biletlərinin saxtalaşdırılması və ya müəyyən edilmiş tariflərdən yüksək qiymətə satılması

224-1.1. Kütləvi idman tədbirlərinə və idman yarışlarına giriş biletlərinin saxtalaşdırılmasına görə -

fiziki şəxslər beş yüz manat miqdarında, vəzifəli şəxslər iki min manat miqdarında, hüquqi şəxslər beş min manat miqdarında cərimə edilir.

224-1.2. Kütləvi idman tədbirlərinə və idman yarışlarına giriş biletlərinin “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş tariflərdən yüksək qiymətə satılmasına görə -

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək miqdarda, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək miqdarda cərimə edilir.

Maddə 298-1. Kütləvi idman tədbirlərinin və idman yarışlarının keçirilməsinə mane olma

298-1.0. Kütləvi idman tədbirlərinin və idman yarışlarının keçirilməsinə mane olmağa, yəni:

298-1.0.1. Bədən tərbiyəsi-idman obyektlərinin ərazilərinə və tamaşaçılar üçün nəzərdə tutulmuş yerlərə “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa görə daxil olmasına yol verilməyən şəxslərin buraxılmasına;

298-1.0.2. bədən tərbiyəsi və idman obyektlərinin ərazilərində və tamaşaçılar üçün nəzərdə tutulmuş yerlərdə “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilən əşyaların istifadəsinə, hərəkətlərin edilməsinə görə

- fiziki şəxslər beş yüz manat miqdarında, vəzifəli şəxslər iki min manat miqdarında, hüquqi şəxslər beş min manat miqdarında cərimə edilir.



# “Münaqişənin həlli üçün ilk növbədə işğal faktına son qoyulmalıdır”

**Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov Serbiyanın ATƏT-ə sədrliyi üzrə işçi qrupun rəhbəri səfir Dejan Şahoviçi qəbul edib. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, E. Məmmədyarov Azərbaycanla Serbiya arasında siyasi, iqtisadi və humanitar əlaqələrin uğurla inkişaf etdiyi bildirərək, beynəlxalq təşkilatlar çərçivəsində də iki ölkə arasında sıx təmasların olduğunu diqqətə çatdırıb. Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə aparılan danışıqlar haqqında məlumat verən E. Məmmədyarov güc tətbiq edərək, dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsi cəhdlərinin qəbuledilməz olduğunu vurğulayıb. O əlavə edib ki, münaqişənin həlli üçün ilk növbədə Ermənistanın işğalçı silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalı və işğal faktına son qoyulmalıdır. Görüşdə ATƏT-in gündəliyində duran aktual məsələlər ətrafında müzakirələr aparılıb.**

# Demokratik İslahatlar Partiyası maliyyə hesabatını təqdim etdi

**Demokratik İslahatlar Partiyası 2014-cü ildə “Maliyyə vəziyyəti haqqında” və “Maliyyə fəaliyyətinin nəticələri haqqında” hesabatları Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edib. Həmin hesabatlara dair məlumatları diqqətinizə çatdırırıq. “Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə Qaydası”na 1 nömrəli əlavə**

Maliyyə vəziyyəti haqqında hesabat
31 dekabr 2014-jü il tarixə

1 nömrəli Forma

| VÖEN | 1 | 7 | 0 | 0 | 4 | 8 | 5 | 9 | 6 | 1 |
|---|---|---|---|---|---|---|---|---|---|---|

Siyasi partiyanın adı — Azərbaycan Demokratik İslahatlar SiyasıPartiyası
Mülkiyyət növü — xüsusi
Hüquqi ünvanı — Bakı şəhəri,Neftçilər pr. 65-5

(manatla)

| Bölmə/maddələrin adı | Qeydlər | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 97.42 | | 349.02 | |
| Sair qısamüddətli aktivlər | | 225.39 | | 1029.43 | |
| Cəmi qısamüddətli aktivlər | | | 323.21 | | 1378.45 |
| Cəmi aktivlər | | | 323.21 | | 1378.45 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | (251.2) | | (508.55) | |
| Cəmi xalis aktivlər (kapital) | | | (251.2) | (508.55) | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | | 544.44 | |
| Sair qısamüddətli öhdəliklər | | 574.41 | | 1342.56 | |
| Cəmi öhdəliklər | | | 574.41 | | 1887.0 |
| Cəmi xalis aktivlər (kapital) və öhdəliklər | | | 323.21 | | 1378.45 |

“Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə Qaydası”na

2 nömrəli əlavə
Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat
31 dekabr 2014-cü il tarixə
2 nömrəli Forma

| VÖEN | 1 | 7 | 0 | 0 | 4 | 8 | 5 | 9 | 6 | 1 |
|---|---|---|---|---|---|---|---|---|---|---|

Siyasi partiyanın adı — Azərbaycan Demokratik İslahatlar SiyasıPartiyası
Mülkiyyət növü — xüsusi

| Maddələrin adı | Qeydlər | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Gəlirlər o cümlədən: | | 106534.09 | | 105969.33 | |
| dövlət büdcəsindən ayrılan vəsait | | 106534.09 | | 105969.33 | |
| Xərclər, o cümlədən: | | 106785.29 | | 106477.88 | |
| cari işlərə sərf olunan vəsait | | 43818.0 | | 65094.06 | |
| siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər | | 62967.29 | | 41383.06 | |
| ümumi mənfəət (zərər) | | (251.2) | | (508.55) | |

Hüquqi ünvanı — Bakı şəhəri, Neftçilər pr. 65-5
(manatla)

❑ **Vüqar MURAD**




# Zakir Həsənov Türkiyədə ordu generalları ilə görüşdü

**İstanbul şəhərində keçirilən “İDEF - 2015" beynəlxalq müdafiə sənayesi sərgisində iştirak edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov müxtəlif ölkələrin və müdafiə sənayesi şirkətlərinin silah, texnika və hərbi avadanlıq istehsalı sahəsində əldə etdikləri nailiyyətlərlə tanış olub.**

APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, Zakir Həsənov sərgidə nümayiş etdirilən Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan müxtəlif təyinatlı məmulatları maraqla izləyib.

Sərginin keçirildiyi günlərdə müdafiə nazirinin Türkiyə milli müdafiə naziri İsmət Yılmaz, Türkiyə Respublikası Baş Qərargahının rəisi ordu generalı Necdet Özel, Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Hülusi Akar və başqaları ilə təkbətək görüşləri olub.

Görüşlərdə ölkələrimiz arasında müdafiə sahəsində mövcud vəziyyət, hərbi, hərbi-texniki və hərbi təhsil istiqamətlərində ikitərəfli əməkdaşlığın müxtəlif aspektləri, xüsusilə mayın 12-dən 16-dək Azərbaycanda keçiriləcək Azərbaycan-Türkiyə Quru Qoşunları bölmələrinin növbəti birgə taktiki təliminin icrası ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

# SSRİ tarixin 5 ən vahiməli superdövlətindən biri sayıldı

**SSRİ - bütün zamanların 5 ən iri superdövlətlərindən biri adlandırılıb. Musavat.com-un məlumatına görə, bu barədə “Teh National İnterest” nəşri yazıb. Amerika jurnalı Top-5-ə həmçinin Roma, Monqol və Britaniya imperiyalarını daxil edib. Siyahıya ABŞ da düşüb.**

Məqalədə qeyd edilir ki, dünya çoxlu böyük imperiyalar görüb, ancaq fövqəldövlətlərin siyahısı çox kiçikdir. “Dövlətə superdövlət olmaq və bu statusu saxlamaq çox çətindir, çünki bunun üçün bütüm rəqiblər üzərində mütləq üstünlük tələb olunur” - məqalədə qeyd edilir.

Yazıda bildirildiyinə görə, görünür, Sovet İttifaqı kimi nəhəng ölçülü və böyük resurslara malik dövlətin superdövlət olması qaçılmaz imiş. “SSRİ öz əhalisini və ərazisini əsasən Rusiya imperiyasından miras almışdı. Nüvə silahları ilə dəstəklənən nəhəng yerüstü ordunu qarşıdurmada adi növ silahlarla ram eləmək mümkün deyildi. Sovet İttifaqının geosiyasi üstünlükləri Qərbdə bir çoxlarını ehtiyatlanmağa vadar edirdi ki, Avrasiyanın mərkəzinə kim nəzarət edəcəksə, o da Avrasiyaya və deməli, həm də dünyaya nəzarət edəcək” - yazıb nəşr.



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Cənnət uzaqlarda

**Tofiqin kömür kimi yanmış üzünə, heydən düşmüş gözlərinə baxa bilmirsən. Biz Cənnəti yağmalanmış Qarabağ döyüşçüsünü Cəhənnəmdə saxlayırıq axı!**

Müsavatçı Tofiqi həbsdə saxlaya bilərik, Müsavat çox məhbusluq görüb, amma Qarabağ döyüşçüsü Tofiqi buraxmalıyıq. Demirəm Tofiq gənc qızını itirib, bağrı paralanıb. Tofiq Torpaq uğrunda döyüşüb. Bizim Torpaq dərdindən irəli heç bir dərdimiz yoxdur axı!

...Müharibə veteranlarının üzünə baxa bilmirsən.

Göygöldə, Goranboyda düşmənlə döyüşüb Cənnəti bizə yaxın eləmiş İlham İsmayılın üzünə. Acılar içində olan, Cənnəti uzaqlarda olan gözlərinə.

Sinif yoldaşım Elçinin üzünə. Məğlubiyyət acısı yaşayan gözlərinə. Şuşa döyüşündə - 1992-ci il mayın 8-i - ən ağır mövqedə olub, neçə yağını təkbaşına məhv edib, adını çəkən də yoxdur indi.

Uşaqlıq dostum Elxanın üzünə. İlin hər gününü 8 may əzabı içində olan gözlərinə. Döyüşdə canı yarılanıb. Ürəyi al qan içindədir indi.

Canında qəlpə, gözündə kədər gəzdirən Reyin üzünə.

...Bizim toylarda bir hava var: "Cənnət uzaqlarda deyil, Qarabağ torpağındadır" çalıb-oxuyuruq.

Cənnət uzaqlarda deyil: Yevlax var Qarabağda, Bərdə, Ağcabədi, Beyləqan, Tərtər, Goranboy var. Hər qarışı bizdə olan torpaqlar.

Ağdərə, Ağdam, Xocavənd, Füzuli var. Bir qarışı bizdə olan torpaqlar.

Goranboydan əlini at, Kəlbəcərə çatacaq.

Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocalı, Xankəndi, Şuşa da uzaqda deyil, havası vurur.

Biz Cənnətin özündəyik - Yevlaxda, Bərdədə, Ağcabədidə, Beyləqanda, Tərtərdə, Goranboydayıq.

Biz Cənnətin bir qarışındayıq - Ağdərədə, Ağdamda, Xocavənddə, Füzulidəyik.

Biz Cənnətin iki addımlığındayıq - Kəlbəcərin, Laçının, Qubadlının, Zəngilanın, Cəbrayılın, Xocalının, Xankəndinin, Şuşanın iki addımlığında.

Amma Cənnətin özündə, bir qarışında, iki addımlığında ola-ola Cəhənnəm əzabındayıq.

...Qızının yasında özümdə güc tapıb Tofiqin kömür kimi yanmış üzünə, heydən düşmüş gözlərinə baxdım. Cənnət - əlimizdən çıxmış torpaqlar çox uzaq göründü mənə.

...Cənnət uzaqlarda deyil: Bakıda, Qubada, Şamaxıda, Şəkidə, Gəncədə, Lənkərandayıq.

Əlimizdə olan torpaqlara görə Qarabağ döyüşçülərinə borcluyuq. O torpaqları döyüşçülər üçün şadlıq sarayına ("Cənnət uzaqlarda deyil, Qarabağ torpağındadır") və ya yas mağarına (Nərgiz Yaqublunun yas mağarındakı şəklini gördünüzmü???) çevirməli deyilik axı!..

❑ **Hikmət SABİROĞLU**

# Günün içindən

YENİ MÜSAVAT
N 98 (6126) 7 may 2015

# Müsavat başqanının müavininə hökm oxundu - 6 il yarım...

## Fərəc Kərimli son söz deməkdən imtina etdi; **Arif Hacılı:** "Cəmiyyət bu cür haqsızlıqlara dözməyəcək"

**Mayın 6-da Bakı Ağır Cinayətlər Məhkəməsində Müsavat başqanının müavini Fərəc Kərimlinin son məhkəmə prosesi keçirildi. Prosesdə Müsavat başqanı Arif Hacılı və partiya fəalları, eləcə də mətbuat nümayəndələri iştirak edirdilər.**

Proses başlamazdan öncə **F.Kərimli** jurnalistlərə açıqlama verdi: "Həbsimin ilk günlərindən bu işin qondarma, sifariş olduğu aydındır. Yəqin ki, bu gün sifarişli hökm oxunacaq. Məhkəmədəki ifadəmdən sonra ciddi təzyiqlər başlayıb. Məhbus qardaşım Sirac Kərimli ilə kameramızı dəyişdilər. 28 apreldən sonra ümumiyyətlə, qəzet verilmir. Qırmızı Xaç Komitəsinin nümayəndələrinin təcridxanaya gəlişindən sonra görüşə icazə verdilər. Amma şüşə arxasında. Görüşdən imtina etdim. Hazırda təkadamlıq kamerada saxlanılıram. Saxlanma şəraiti normaldır"...

**Şəkər Məmmədovanın sədrliyi ilə keçən məhkəmə müdafiə tərəfinin vəkili Nemət Kərimlinin çıxışları ilə başladı. Vəkil hüquqlarını müdafiə etdiyi şəxsin siyasi fəaliyyətinə görə həbs olunduğunu qeyd etdi:** "Təqsirləndirilən şəxs özünü heç zaman təqsirli bilmədi. O, həbs olunarkən Müsavat Partiyasının üzvü, partiyanın saytının admini idi. Hazırda başqan müavinidir. 23 iyul 2014-cü il tarixində anasını xəstəxanaya apararkən həbs edilib. Ertəsi gün DİN-in mətbuata verdiyi informasiyada onun narkotik maddələrinin istifadəçisi, satışını təşkil etdiyinə görə məsuliyyətə cəlb olunduğunu bildirib. İki gün Fərəc Kərimli ilə əlaqə saxlamaq mümkün olmayıb. Onunla bağlı Avropa Məhkəməsinə göndərdiyimiz iş artıq icraata götürülüb. Ötən ilin 21 oktyabr və 20 dekabr tarixlərində həbs müddəti qanunsuz olaraq uzadıldı. Fərəc Kərimli vicdan məhbusudur. O, "Saxarov" mükafatına layiq görülüb. Prokuror qeyd etdi ki, onun cinayəti tam sübuta yetirilib, ittiham hökmü çıxarılmalıdır. Bunlar tam absurd fikirlərdir. Fərəc Kərimli sərbəst ifadəsində təzyiq altında verdiyi bütün ifadələrindən imtina edib. Hüquqlarını müdafiə etdiyim şəxs protokola fiziki təzyiqlər altında qol çəkib. İstintaq materiallarında kifayət qədər ziddiyyətli məqamlar var. Əsas da Fərəc Kərimlinin həbs vaxtı ilə bağlı. Onun saat 11:25-də həbs olunduğu deyilir. Amma iş materiallarında 11:00 yazılıb. Dövlət vəkilinin saat 11-də qol çəkdiyi göstərilir. Təqsirləndirilən şəxsin dəmir barmaqlıqlar arxasından çıxarılması, hal şahidlərinin çarpaz dindirmələri ilə bağlı vəsatətlərimiz təmin olunmadı. Ümumiyyətlə, 8 vəsatət verdik, hamısı rədd edildi.

Hal şahidlərinin ifadələri nöqtə-vergülə qədər eynidir. İfadələr o zaman üst-üstə düşür ki, ya əzbərlənir, ya da hazır sənədə qol çəkilir. Hesab edirik ki, bunlar sübutlar siyahısından çıxarılmalıdır. Bütün bu faktlardan sonra Fərəc Kərimli barəsində bəraət hökmünün çıxarılmasını xahiş edirik".

**Daha sonra hakim Fərəc Kərimlidən son söz deməsini istədi. Təqsirləndirilən şəxs son söz deməkdən imtina etdi:** "İfadələrimdə göstərmişəm ki, həbsim siyasi sifarişdir. Müsavatda olan fəaliyyətim və avtoritar rejimə qarşı mübarizə aparmağımla birbaşa bağlıdır. Həbsdə olduğum müddətdə mənə qarşı göstərilən qərəzli münasibət hər şeyin sübutudur. Qanunları ayaq altına alan məhkəmədə son söz demək sifariş verənlər üçün şərəf olar. Son sözümdən imtina edirəm. Məhkəmə heyətinə bildirmək istəyirəm ki, sizə qərar qəbul etmək üçün 3-5 dəqiqə vaxt verilib. Nə tapşırıq verilibsə, gedin müşavirəyə və qayıdanda oyunun nəticəsini elan edin, oyun da bitsin".

F.Kərimlinin sözlərindən sonra zaldakı iştirakçılar onu ayaq üstə alqışladılar. Hakimlər qərar qəbul etmək üçün müşavirəyə yollandılar. Fasilə zamanı təqsirləndirilən şəxsin qollarına qandal vurulması etiraza səbəb oldu.

Yarım saatlıq müşavirədən sonra hökm elan olundu. Hakim hökmü elə astadan oxuyurdu ki, özündən başqa heç kəs eşitmirdi. Proses iştirakçıları hakimə etiraz etdilər.

**Fərəc Kərimli də öz narazılığını bildirdi:** "Mən kimdən neçə il cəza aldığımı öyrənməliyəm?"

Lakin Şəkər Məmmədova heç bir etiraza məhəl qoymadan ittiham hökmünü astadan oxumağa davam etdi. Yalnız qərarın tam oxunmasından sonra məlum oldu ki, Fərəc Kərimli 6 il 6 ay müddətində azadlıqdan məhrum edilib.

F.Kərimli hər kəsi möhkəm olmağa çağırdı. Bundan sonra zal tamam boşaldıldı.

**Məhkəmədən sonra Arif Hacılı müavininə verilən hökmlə bağlı mətbuata açıqlama verdi:** "Fərəc Kərimli Azərbaycan gəncliyinin liderlərindən biridir. Azərbaycan hakimiyyətinin siyasətinə qarşı sosial şəbəkələrdə açıq çıxışlar edirdi. Onun və qardaşı Sirac Kərimlinin həbsi Müsavatın üzvü olmaları ilə bağlıdır. Azərbaycanda, ümumiyyətlə, ədalət mühakiməsi mövcud deyil. Ona görə məhkəmədən ədalətli qərar gözləmirdik. Biz bütün instansiya məhkəmələrini keçərək, Avropa Məhkəməsinə müraciət etmək niyyətindəyik. İqtidarın xalqa zidd siyasəti davam edir. Hazırda yüzdən artıq siyasi məhbus var. Hakimiyyət bu yolla cəmiyyəti susdurmaq istəyir. Lakin hesab edirəm ki, cəmiyyət bu cür haqsızlıqlara dözməyəcək. Hakimiyyətin siyasəti uğursuzluğa düçar olacaq".

**F.Kərimlinin atası Raqif Kərimli də danışdı:** "Fərəcə çox iş veriləcəyini gözləyirdim. Çünki səhvən həbs etdikləri digər oğlum Siraca 6 il cəza verdilər. Övladlarımın heç birinin hüquqları təmin olunmadı, irəli sürülmüş narkotik ittihamı tamam şər-böhtandır. Onların siyasi fəaliyyətlərinə görə həbs olunduqlarını desəydilər, bu qədər mənə təsir etməzdi. Ailəmizə yaraşmayan ad qoydular. Hakimiyyətin xislətindən irəli gəlir".

**Vəkil Nemət Kərimli atacaqları addımlarla bağlı bunları dedi:** "Siyasi sifarişi yerinə yetirdilər. Azərbaycanda ittiham tərəfi nə yazırsa, məhkəmədə onu həyata keçirirlər. Ardıcıllıqla instansiya məhkəmələrinə müraciət edəcəyik".

Qeyd edək ki, Fərəc Kərimli ötən il iyulun 23-də həbs edilib. Onun həbsindən bir həftə əvvəl qardaşı Sirac Kərimli həbs edilib. Kərimli qardaşları Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitə əldə etmə, saxlama, satma, daşıma) maddəsilə ittiham edilirlər.

❑ **Cavanşir ABBASLI**

**Fotolar müəllifindir**







# “DAK yoxdur, DAK-ın skeleti var” - Sabir Rüstəmxanlıya şok ittihamlar

## Əjdər Tağızadə: “Bu, qurultay yox, əsl şou idi”; “Sabir bəy DAK-ı Azərbaycan Respublikasına köçürdü və burda dəfn elədilər”

**Ötən həftə Dünya Azərbaycanlıları Konqresinin İstanbulda keçirilən qurultayında yaşananlar Güney Azərbaycan təmsilçilərinin etirazına səbəb olub. DAK-ın Daimi Şurasının sədri Əjdər Tağızadə “Yeni Müsavat”a müsahibəsində bildirib ki, DAK faktiki olaraq Güneyin problemlərindən uzaq, ölü bir quruma çevrilib: "Hər kəsə bəllidir ki, Sabir Rüstəmxanlı əslində DAK-ın həmsədri olsa da, qurumun siyasətini tək müəyyən edir. Onun ətrafında cəmi 3 güneyli var. Qalan hamısı Güney məsələsindən xəbərsiz, bu məsələdə heç bir xidməti olmayan Quzeydən olan təsadüfi şəxslərdir. Onların vasitəsilə Sabir Rüstəmxanlı özünü dördüncü dəfədir həmsədr seçdirir".**

*- Siz də İstanbulda keçirilən qurultayda idiniz, nəyə görə həmin toplantıda bu iradlarınızı səsləndirmədiniz?*

- Əgər mən həmin məclisdə bütün iradlarımı bildirsəydim, Sabir bəyin, Tənzilə xanımın salona doldurduqları kimliyi bilinməyən insanlar mənə hücum edəcək, münaqişə başlayacaqdı. Ad da olacaqdı ki, Əjdər Tağızadə qurultayı pozdu.

*- Ancaq bütün hallarda bu məsələlər toplantılarda müzakirə edilməli, çoxluğun qərarı üstün olmalı deyilmi?*

- Məsələ burasındadır ki, İstanbul toplantısında 3-4 güneyli vardı. Onlar da təşkilati məsələlərə təsir göstərmək iqtidarında olmayan, arxalarında real güc dayanmayan insanlardır. İsa Qəmbər də orda idi, Pənah Hüseyn də. Onlardan da soruşa bilərsiniz. Bu, qurultay yox, əsl şou idi. 1-2 pafoslu çıxış elədilər, sonra da Sabir bəyin təqdim etdiyi siyahı üzrə “seçki” oldu, bununla da məsələ bitdi. Kommunist Partiyasındakı seçki kimi... Mən dəfələrlə demişəm, bir də deyirəm, Sabir bəyə böyük hörmətim olmasına baxmayaraq, o, bu təşkilatı Bakıya köçürdü və burda dəfn elədi.

**“Güneylilər olaraq biz çox yaxşı dərk edirik ki, zəif təşkilatçılığın kökündə quzeylilərin Güneydəki prosesləri yaxından tanımaması dayanır. Bəzən təşkilat adından elə qüvvələrlə təmaslar qurulur ki, biz şok keçiririk”**

*- Aydındır ki, Quzeydə yaşayanlar Güneyin problemlərini tam dərinlikləri ilə bilə bilməz. Neçə illərdir bu mübahisələr davam edir, ancaq bir şəkildə güneylilər təşəbbüsü ələ almır. Almaq istəmir, yoxsa ala bilmir?*

- Kənarda belə təbliğat aparılır ki, guya Sabir Rüstəmxanlı öz millət vəkilliyi səlahiyyətlərindən, üstəlik, hökumətə yaxınlığından istifadə edib Güneylə bağlı böyük işlər görür. Ona görə də güneylilərin bəziləri bu işlərin hara aparacağını gözləyir. Əslində isə heç bir iş görülmür. Hələ Sabir Rüstəmxanlı bu quruma həmsədr gətiriləndən bir daşı qaldırıb o biri daşın üstünə qoymayıb. Biz onu həmsədr gətirəndə düşündük ki, o, millət vəkilidir, milli adamdır, bu işi qabağa aparar, güneylilərin ən azı Azərbaycanda status alması üçün Milli Məclisdə məsələ qaldırar. Beynəlxalq institutlarla təmaslarda da DAK-a bir millət vəkilinin sədrlik etməsi yaxşı qarşılanardı. Çünki bu iş İran rejimindən qurtulub Avropada, ya ABŞ-da sığınacaq alan güneylilərin üzərinə düşəndə beynəlxalq institutlar uzun müddət təmaslardan yayınır, həmin insanların kimliyini, hansı qüvvələrə bağlı olduğunu araşdırırdı. Biz də hesab etdik ki, bu işi rəsmi statusu olan quzeyliyə tapşıraq. Ancaq Sabir bəy nə təşkilatın genişlənməsi, nə parçalanan qurumların birləşməsi, nə də məsələnin beynəlxalq gündəmə gətirilməsi üçün bir dəfə də ciddi addım atmayıb. DAK adından görülən işlərin də müəllifi biz özümüzük. Gedirik, Azərbaycan Diaspor Komitəsi ilə danışıqlar aparırıq, toplantılar üçün yüklü miqdarda maliyyə ayrılmasını təmin edirik, həmin məbləğ rəsmi qaydada Sabir bəyin hesabına köçür, axırda da ortaya belə bir mənasız, Güney məsələsinə heç bir xidmət etməyən məsələ çıxır. Bir yerdə bu proses dayanmalıdır.

**“Sabir Rüstəmxanlı elə bilir peyğəmbərdir. Güneylilər, siz gözləməyin ki, Quzeydən sizə peyğəmbər gələcək”**

*- Kim dayandırmalıdır?*

- Güneylilər.

*- Sizə nə mane olur?*

- Yenə deyirəm, təşkilatın guya hansısa böyük işlər görməsi ilə bağlı arxasında heç bir iş dayanmayan təbliğat. Xaricdə bu təşəbbüsü üzərinə götürüb, ciddi şəkildə təşkilatlanmağa hazır olan gənclik var. Ancaq onlar ortaya bir təşəbbüs qoyan kimi o dəqiqə kimsə çıxıb deyir ki, DAK var, siz yenə parçalanma yaradırsız. DAK harda var, DAK yoxdur, DAK-ın skeleti var. Sabir bəy tanınmış söz adamıdır. Bir yerə gedib şeir oxusa bəlkə 3 min adam toplayar, ancaq Güney məsələsi onun görə biləcəyi bir iş deyil. Onun rəhbərliyi ilə keçirilən toplantıların heç birində Güney Azərbaycanın bugünkü problemləri ilə bağlı konkret məsələ qoyulmur. Elə hər dəfə ümumi sözlər, eyni adamların çıxışı, ortada da heç bir nəticə yox. Mən soruşuram, sonuncu dəfə DAK Güneydəki proseslər - insan haqlarının kobud şəkildə pozulması, kütləvi həbslər, milli-mədəni azadlıqlarını tələb edən insanların və onların ailələrinin təqib edilməsi ilə bağlı hansı beynəlxalq quruma müraciət edib, nə zaman bu haqda bəyanat verib?

*- Bəs bu DAK nə işlə məşğuldur?*

- İnandırıram sizi, heç nə ilə. Yalnız bir neçə ildən bir toplanıb sönük bir qurultay keçirməklə. Sözlərimdən qətiyyən elə çıxmasın ki, mən Sabir bəyin şəxsiyyətinə qarşıyam. Onun bütün ailəsini, qardaşlarını tanıyıram, ata ocağına böyük sayğım var. Ancaq dostluq ayrı, iş ayrı. Mənim istəyim odu ki, Güney Azərbaycanla bağlı proses dayanmasın, bizim milli hüquq və azadlıqlarımızın təmin edilməsi üçün mübarizə davam eləsin. Sabir Rüstəmxanlı bu yaxınlardakı çıxışlarından birində deyib ki, DAK-ın fəaliyyəti İrana qarşı deyil. Necə İrana qarşı deyil? Bəs kimə qarşıdır? DAK-ın bir nömrəli fəaliyyəti indiki İran rejiminin dağılması, ölkədə demokratik düzən qurulması, insan haqlarının bərqərar olması, insanlara milli kimliklərinə görə ayrı-seçkilik qoyulmaması deyilmi? Bizim ABŞ-da, Avropa ölkələrində, Azərbaycanda, bu məsələyə dəstək vermək iqtidarında, imkanında olan insanlarımız var. Bu iş də başlı-başına qalıb. Güney məsələsinin ən böyük lobbisi də Azərbaycan Cümhuriyyətində olmalıdır. Millət vəkillərinin, siyasətçilərin, vətəndaş cəmiyyəti institutlarının təmsilçilərinin, jurnalistlərin bu məsələyə dəstəyini təşkil etmək gərəkdir. Hökumətin Güney məsələsi ilə açıq məşğul ola bilmədiyini biz də anlayırıq - bu, İranla Azərbaycanın ikitərəfli münasibətlərini gərginlikdə saxlayar. Ancaq vətəndaş cəmiyyəti institutlarının vəzifəsi də elə hökumətin görə bilmədiyi işləri üstlənməkdi. Heç bir iş görmürlər...



**“Mən soruşuram, sonuncu dəfə DAK Güneydəki proseslər - insan haqlarının kobud şəkildə pozulması, kütləvi həbslər, milli-mədəni azadlıqlarını tələb edən insanların və onların ailələrinin təqib edilməsi ilə bağlı hansı beynəlxalq quruma müraciət edib, nə zaman bu haqda bəyanat verib?”**

*- Güneylilər olaraq çıxış yolunu nədə görürsüz? Öz aranızda bu məsələni müzakirə etmirsizmi?*

- Edirik. Elə bir ölü nöqtəyə gəlmişik ki, mütləq yaxın zamanlarda təşkilatı bu ölü nöqtədən çıxarıb dirçəltmək gərəkdir. Yoxsa uzun illər apardığımız mübarizə, gördüyümüz işlər yarımçıq qalacaq. Güneylilər olaraq biz çox yaxşı dərk edirik ki, zəif təşkilatçılığın kökündə quzeylilərin Güneydəki prosesləri yaxından tanımaması dayanır. Bəzən təşkilat adından elə qüvvələrlə təmaslar qurulur ki, biz şok keçiririk. İnanın İstanbul qurultayında mən çətinliklə söz alaraq bu haqda danışmışam. Orada heç kimə söz vermirdilər. Mən orda dedim ki, güneylilər, siz gözləməyin ki, Quzeydən sizə peyğəmbər gələcək. Peyğəmbərlər dövrü bitib. Sabir bəy elə bilir peyğəmbərdi. Mənim çıxışımdan sonra Sabir Rüstəmxanlı mənə deyir ki, niyə əleyhimə danışırsan?

**“Türkiyədə bizə deyirdilər, amandı, səsinizi çıxarmayın kürdlər oyanar. Bizim başımızdan vurdular, kürdlər oyandı”**

*- Cavabınız nə oldu?*

- Dedim, mən sizin əleyhinizə yox, təşkilatın xeyrinə danışıram. Dedim, ey güneylilər, özünüz təşəbbüs göstərin, özünüz öz ayağınızın üzərində dayanın, kənardan heç kim sizin problemlərinizi həll etmək gücündə deyil, düşünməyin ki, Azərbaycan Respublikasında sizin problemlərinizi çözməyə hazır olan, sizin həyatınızla maraqlanan insanlar var. Mənim bu çıxışımı məmləkəti parçalamaq kimi qələmə verirlər. Ancaq mən faktlarla danışıram. Bu adamlar nə bir iş görür, nə də Güneydəki proseslərdən xəbərdardır. Getdikcə Quzeydəki alov da sönməkdədir. DAK-dakılar özlərini xalq mücahidləri adlanan kəsimlə, şahçı ilə milli fəalın arasında fərqi bilmirsə, bu mübarizə necə nəticə verə bilər? DAK təmsilçisi Maliki hökumətinin yaxınları ilə niyə münasibət qurmaldır? Gedirlər, gəlib deyirlər ki, bizi orda yüksək səviyyədə qarşıladılar. Ora bütünlüklə Tehran rejiminin əlindədir. DAK mübarizə aparmalı olduğu qüvvələrlə niyə yaxınlaşma siyasəti aparır? DAK təmsilçisini Kərkükə buraxmırlar, şiə qanadı ilə işləyən rəsmilərin müşayiəti ilə Kərbəla ziyarətinə gedir. Mən bu yanaşmanı anlamıram. Biz deyirik ki, Güney Azərbaycanda türklər yaşayır və onlar məmləkətlərində dünyəvi dövlət qurulmasını arzulayır. Bizim ərəb dünyasının sünni-şiə savaşına qarışmağımıza nə ehtiyac var? DAK təmsilçisi Parisdə özünü Xalq Mücahidləri adlandıran qüvvələrin qurultayına qatılır. Məgər bilmirlərmi ki, bu qüvvələr milli qüvvələrə qarşı zamanında ən böyük savaş açan qanaddır?

*- Sizcə, bilirlər?*

- Bilmirlər. Bizim də davamız budur. Bu insanlar İranda baş verənlərdən, İranda hansı qüvvənin kimi dəstəklədiyindən xəbərsizdirlər. Biz güneylilər olaraq Azərbaycandan, Türkiyədən hər zaman ciddi dəstək gözləyirik. Bir zamanlar Türkiyədə bizə deyirdilər, amandı, səsinizi çıxarmayın kürdlər oyanar. Bizim başımızdan vurdular, kürdlər oyandı. İndi bu kürdün Azərbaycanın güneyinə də, qüzeyinə də torpaq iddiaları var. Biz birdəfəlik anlamalıyıq ki, problemlərimizi həll eləmədikcə, onlar zamanla köhnəlib sıradan çıxmayacaq, əksinə, bizə daha böyük bəlalar yaradacaq. DAK-ın işi də olanları xalqa çatdırmaq, bəyanatlar qəbul etmək, milləti öz problemləri ətrafında səfərbər eləməkdir. Bütün bunlar da ömürlük kürsü arzuları ilə bir araya sığmaz.

❑ **Aygün MURADXANLI**

**P.S.** *“Yeni Müsavat” müsahibədə adı keçən şəxslərin mövqeyini dərc etməyə hazırdır.*

YENİ MÜSAVAT
N 98 (6126) 7 may 2015

## Avropadan "Şərq tərəfdaşı"na qeyri-səmimi münasibət

**Yunanıstan hökumətinin ölkənin qaz kəmərləri sisteminin operatoru olan DESFA şirkətinin səhmlərinin 66 faizinin SOCAR-a satışına dair müqaviləni pozmaq istəməsi barədə ötən saylarımızda xəbər vermişdik. SOCAR DESFA-nın səhmlərinin üçdə ikisinin 400 milyon avroya alınmasına dair müqaviləni 2013-cü ilin yayında imzalayıb. Lakin solçu yunan hökuməti bildirib ki, DESFA-nın səhmlərinin 66 faizini yox, 49 faizini SOCAR-a sata bilər.**




# Avropa Birliyi Putinin Azərbaycana qarşı planında

## AB öz məhdud maraqlarını Bakıya qəbul etdirmək üçün Rusiya ilə bir cəbhədə durmağa qərar verdi; DESFA-nın məhz SOCAR-a verilməsi üçün Yunanıstana ciddi təzyiq edən qurum indi nədən mövqeyini dəyişib?

Yunanıstan hökuməti ölkənin nəhəng məbləğdə xarici borclarını azaltmaq və defolt təhlükəsindən xilas olmaq üçün dövlət əmlakının özəlləşdirilməsi proqramı çərçivəsində DEPA şirkətini satışa çıxarmışdı. Bu şirkətin satışına dair tenderdə əvvəlcə Rusiyanın "Qazprom" şirkəti əsas iddiaçı idi, SOCAR-da DEPA-nın səhmlərini almağa iddia edirdi. Lakin daha sonra SOCAR Rusiyanı qıcıqlandırmamaq üçün bu niyyətindən imtina edib Yunanıstanın qaz kəmərləri sisteminin operatoru olan DESFA şirkətini almağa qərar verdi. Avropa Birliyi Yunanıstanın o vaxtkı hökumətinə DESFA-nın məhz SOCAR-a verilməsi üçün ciddi təzyiq edirdi. Yunanıstanın Avropa Birliyi liderlərinin iradəsinin əksinə olaraq Rusiya ilə yaxınlaşmasından sonra Kreml bir neçə ay əvvəlki məğlubiyyətin əvəzini çıxmaq üçün yunan baş nazirindən "Qazprom" şirkətinin Yunanıstanın əsas təbii qaz tədarükçüsü olan DEPA şirkətini almaq təklifinə yenidən baxılması şərti qoyub. Yunanıstan hökumətinin paralel olaraq DESFA şirkətinin satışına dair müqaviləni pozmaq istəməsi ilə Kreml bir güllə ilə iki hədəf vurmuş olur. Yəni DEPA "Qazprom"un nəzarətinə keçərsə, aydındır ki, DESFA-nın taleyi də ciddi sual altına düşəcək.

SOCAR-la DESFA arasında müqavilə bir neçə aydır ki, Avropa Komissiyasının Antiinhisar Komitəsində ləngidilir və Azərbaycan tərəfi bununla bağlı bir neçə dəfə etirazını bildirib.

Avropa Komissiyasının antiinhisar məsələlərinə cavabdeh üzvü Marqret Vestegerin ötən gün yayılan açıqlaması onu göstərir ki, Avropa Birliyi bu məsələdə yenə gözləmə (bəlkə də təzyiq) mövqeyindən əl çəkməyib. Türkiyənin "Anadolu" agentliyinə açıqlamasında M.Vesteger DESFA-nın səhmlərinin üçdə ikisini almasına dair 2013-cü ildə bağlanmış müqavilə barədə danışarkən deyib ki, müqavilə "bazarda rəqabət prinsiplərinin pozulmasına dair narahatlıqlar yaranıb". Bu səbəbdən Avropa Komissiyası sövdələşməni diqqətlə araşdırır.

"Araşdırmanın ikinci mərhələsini 2014-cü ilin noyabrında başlatmışıq. Məqsədimiz dərindən araşdırma apararaq SOCAR-ın DESFA-nı almasının bazara necə təsir edəcəyini və rəqabət prinsiplərinin pozulub-pozulmayacağını üzə çıxarmaqdır. SOCAR qaz bazarının rəqabətçi və güclü oyunçusudur. Bu araşdırmanın nəticəsi nə olursa olsun, SOCAR TANAP layihəsi sayəsində Avropanın enerji bazarında önəmli oyunçu olaraq qalacaq. Lakin araşdırmanın nəticəsi haqda indidən nəsə demək çətindir" - deyə, M.Vesteger bildirib.

Avropa Komissiyasının üzvü deyib ki, tərəflərə narahatlıqların aradan qaldırılması üçün 90 iş günü müddət verilib. Bu müddət martın 23-də bitib. Lakin tərəflərin Avropa Komissiyasına təqdim etdiyi cavablar qanedici olmayıb. SOCAR və DESFA Avropa Komissiyasının narahatlıqlarını aradan qaldıracaq ikinci cavab hazırlayandan sonra proses yenidən başlayacaq.

Avropa Komissiyasının bu mövqeyi doğrudan da sual doğurur. Əvvəla, yuxarıda da qeyd etdiyimiz kimi, Avropa Komissiyası Yunanıstanın o vaxtkı hökumətinə DESFA-nın məhz SOCAR-a verilməsi üçün ciddi təzyiq edirdi. İndi isə bazarda rəqabət prinsipinin pozulmasından danışılır ki, bu da inandırıcı görünmür. İkincisi, Rusiya ciddi şəkildə həm bu müqavilənin pozulmasına, həm də Yunanıstanın qaz bazarında şəriksiz lider ölkəyə çevrilməsi üçün aşkar fəaliyyət göstərir ki, bu da Avropa Birliyinin maraqlarına daban-dabana ziddidir. O zaman "SOCAR TANAP layihəsi sayəsində Avropanın enerji bazarında önəmli oyunçu olaraq qalacaq" deyən Avropa Birliyi rəsmisinin səmimiyyətinə nə dərəcədə inanmaq olar? Bu həm də o anlama gəlir ki, Avropa Birliyi öz məhdud maraqlarını (assosiativ sazişi imzalayan Ukraynanın durumunu xatırlamaq kifayətdir) Azərbaycana qəbul etdirmək üçün hətta Putinlə belə bir sırada durmağa razıdır. Bu isə səmimi tərəfdaşlıq kimi qəbul edilə bilməz...

Bəzi müşahidəçilər bunu Avropa Birliyinin Azərbaycana qarşı sanksiya təhdidi kimi qiymətləndirir. İddia edilir ki, bu "ləngimə" mayın 21-də Avropa Birliyinin Riqada keçiriləcək "Şərq tərəfdaşlıq" proqramının assosiativ sazişini imzalamaq niyyətində olmayan rəsmi Bakıya "yumşaq sanksiyasıdır". Qeyd edək ki, bir neçə gün əvvəl Rusiya XİN-in rəsmi nümayəndəsi Aleksandr Lukaşeviç bildirib ki, Moskva Riqada keçiriləcək sammitini anti-Rusiya aktı hesab edir və buna "kifayət qədər sərt, prinsipial" reaksiya verəcək. Diplomat əlavə edib ki, rəsmi Moskva sammitə "olduqca mənfi" yanaşır. "Aydındır ki, bizim mövqeyimiz kifayət qədər sərt və prinsipial olacaq. Çünki biz görürük ki, bu tərəfdaşlıq hara gedir və bu proqramın iştirakçılarının, hər şeydən əvvəl Avropa İttifaqının mövqeləri nəzərə alınmaqla kənardan hansı çalarlar kəsb edir" deyə, Lukaşeviç bildirib.

Avropa Birliyinin bu yumşaq desək, sürüşkən mövqeyi rəsmi Bakının indiyədək tutduğu siyasətin doğru olduğuna dair qənaətləri möhkəmləndirir...

❑ **Xəbər xidməti**

# Konstitusiya Məhkəməsi dollarla bağlı qərarı 1 aya açıqlayacaq



## Əkrəm Həsənov: "Məhkəmə bu suala cavab verməlidir: xarici valyutada kredit verməyin özü qanunidirmi?"

**Mayın 7-də Konstitusiya Məhkəməsi (KM) Plenumunun dollar kreditlərinin hansı məzənnə ilə qaytarılması ilə bağlı iclası olacaq. Bu barədə "Qafqazinfo"ya məlumat verən KM-in ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Tural Aslanov bildirib ki, mayın 7-də tərəflərin iştirakı ilə iclas keçiriləcək: "İclasda tərəflərin çıxışları dinləniləcək. Daha sonra hakimlər müşavirə otağına gedəcək. Bir ay ərzində isə dollarla bağlı kreditlərin hansı məzənnə ilə qaytarılması ilə bağlı qərar rəsmi dövlət qəzetlərində dərc olunacaq. Yəni yekun qərar verilməyəcək".**

Qeyd edək ki, Konstitusiya Məhkəməsinin dollarla götürülən kreditlərlə bağlı qərar verməsi uzun müddətdir ki, gözlənilir. Mülki Məcəllədəki bununla bağlı maddələrin izahı bir müddətdir ki, ciddi müzakirə mövzusudur. Mülki Məcəllənin 439.7-ci bəndində bildirilir ki, əgər ödəniş müddəti çatanadək pul vahidinin dəyəri (məzənnə) artmış və ya azalmışsa və ya valyuta dəyişmişsə, borclu ödənişi, əgər bu məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, öhdəliyin əmələ gəldiyi vaxta uyğun məzənnə üzrə yerinə yetirməlidir. Yəni başqa sözlə, dollarla götürülmüş kreditlər, bankla bağlanmış müqavilədə xüsusi bənd yoxdursa, köhnə məzənnə ilə ödənilməlidir. Ekspertlər məsələ ətrafında fərqli, hətta bir-birinə zidd fikirlər səsləndirirlər. Əksəriyyət vətəndaşların xeyrinə qərar çıxarılmasının qanunauyğun olduğunu bildirirlər. **Hüquqşünas Əkrəm Həsənov isə bir məqama diqqət çəkib. O, musavat.com-a açıqlamasında bildirib ki, mayın 7-də qərarın olmaması ümumən Konstitusiya Məhkəməsinin adi iş qaydasıdır:** "Yeni iclasda tərəfləri və ekspertləri dinləyir, sonra da müəyyən müddətdən sonra müzakirə edərək qərarını elan edir. İndiyə qədər qərarlarının demək olar ki, hamısı belə qəbul olunub. Təəccüblü bu deyil. Təəccüblü odur ki, ümumən mətbuatda və əhali arasında, bir qayda olaraq mayın 7-də yalnız xarici valyutada kreditin hansı məzənnə ilə qaytarılması məsələsinə baxılacağı söylənilir. Halbuki Konstitusiya Məhkəməsi ondan da əhəmiyyətli suala cavab verməlidir: xarici valyutada kredit verməyin özü qanunidirmi? Bu, nəinki hüquqi cəhətdən daha vacib məsələdir, həmçinin praktiki əhəmiyyət baxımından da daha önəmlidir. Çünki xarici valyutada kreditin hansı valyutada qaytarılması məsələsinə dair Konstitusiya Məhkəməsi hətta qərar versə ki, əvvəlki, devalvasiyaya qədər olan məzənnə ilə qaytarılmalıdır, bu, yalnız o hala aid olacaq ki, müqavilədə bunun əksi nəzərdə tutulmasın. Bankların əksəriyyəti də bağladığı kredit müqavilələrində məhz bunun əksini təsbit edib. Deməli, əhali bununla heç nə udmayacaq. Bir-iki bankın müştərisi istisna ola bilər. Buna görə də əsas məsələ məhz kreditin xarici valyutada verilməsinə qiymət verilməsidir. Əhali üçün məhz bu məsələ əhəmiyyətlidir".

**Hüquqşünas bir neçə gün əvvəl Konstitusiya Məhkəməsinə məsələ ilə bağlı hüquqi rəy də göndərib. Burada o, dollarla götürülən kreditlərlə bağlı geniş şəkildə açıqlama verib, məsələnin nə dərəcədə qanunauyğun olduğunu hüquqi cəhətdən əsaslandırıb. O cümlədən ekspert təkliflər də verib.**

"Mülki Məcəllənin 439.1-ci maddəsinin məzmununa və mənasına uyğun olaraq, bütün tərəfləri Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxslər olan pul öhdəliyi yalnız manatla ifadə edilməlidir. Bu, həmçinin kredit və bank əmanəti müqavilələrinə də aiddir. Əks halda, həmin müqavilə məcəllənin 337.1-ci maddəsinə əsasən etibarsızdır. Məcəllənin 337.5-ci maddəsinə uyğun olaraq tərəflərdən hər biri xarici valyutada aldığı pul məbləğini digər tərəfə qaytarmalı və ya onun manat ekvivalentini ödəməli, borclu isə həmçinin əlavə olaraq məcəllənin 449.1-ci maddəsinə müvafiq olaraq kreditora bank uçot dərəcəsi ilə faizlər ödəməlidir. Həmçinin, Mülki Məcəllənin 439.2-ci maddəsinin məzmununa və mənasına uyğun olaraq, xarici valyutada olan pul öhdəliyi ödəniş gününə manatın xarici valyutaya məzənnəsi əsasında manatla ödənilməlidir. 439.2-ci maddənin "ödənişin xarici valyutada aparılmalı olduğunun şərtləşdirildiyi hallardan başqa" ifadəsi Konstitusiyanın 19-cu maddəsinin III hissəsinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilməlidir. O cümlədən məcəllənin 439.7-ci maddəsinin məzmununa və mənasına uyğun olaraq, əgər məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, pul vahidinin nominal dəyəri artmış və ya azalmışsa, borclu ödənişi yeni nominal dəyərdə əvvəlki və yeni nominal dəyərin məzənnəsinə uyğun ödəməlidir. Pul vahidinin bazar dəyəri artmış və ya azalmışsa, borclu ödənişi pul öhdəliyinin ifadə edildiyi məbləğdə ödəməlidir. Pul vahidi digər pul vahidi ilə əvəz edilmişdirsə, borclu ödənişi dəyişmə gününün məzənnəsinə uyğun ödəməlidir. Bu qərarda əks olunan hüquqi mövqelər nəzərə alınmaqla pul öhdəliyini nizamlayan qaydaların qanunvericilikdə dəqiq müəyyən olunması Milli Məclisə tövsiyə edilməlidir".

**Ekspertin sözlərinə görə, təklif edilən qərar layihəsi nəinki hüquqi cəhətdən düzgün olar, həmçinin manatın kəskin devalvasiyasından sonra cəmiyyətdə mövcud olan sosial gərginliyi yumşalda və iqtisadi problemlərin bir qismini həll edə bilər:** "Bu təklifin əsas üstünlüyü həm də ondan ibarətdir ki, heç bir tərəfin iddiasını tam təmin etmir və devalvasiya nəticəsindəki yaranmış zərəri onların arasında bölüşdürür".

❑ **RÖYA**



Arif Hacılı

# Müsavat başqanı partiyadakı olaylara reaksiya verdi

## Arif Hacılı: "Təşkilatlarımıza yeridilmiş agentura seti üzərimizə gəlir"

**Vurğun Əyyubun Müsavat Partiyasından çıxarılmasından sonra müşahidə olunan gərginlik, anti-Müsavat kampaniyası davam edir. Müsavat Partiyasının başqanı Arif Hacılı yaranmış vəziyyət, Müsavata qarşı son günlər bütün istiqamətlərdən hücumun başlandığı barədə fikirlərini dünən özünün facebook səhifəsində yazıb.**

A.Hacılı bildirib ki, Azərbaycanda müxalifətçi kimi fəaliyyət göstərmək 1988-ci ildən bu yana heç vaxt indiki kimi çətin olmamışdı. Belə görünür ki, iqtidar 1993-cü ildən yerinə yetirməsə də bəyan etdiyi xarici və daxili siyasi kursundan, avrointeqrasiya və demokratikləşmə xəttindən tamamilə imtina etməyə hazırlaşır. Ona görə də bütün müqavimət mərkəzlərini məhv etmək istəyirlər: "Azərbaycan Rusiyanın köləliyinə sürüklənir. Bunun üçün isə bütün müqavimət mərkəzlərini ələ almaq və ya məhv etmək xətti götürülüb. Məhkəmə, qanunvericilik, təhsil, səhiyyə, yerli özünü idarə, seçki sistemləri sıradan çıxarılaraq hakimiyyətin yolsuzluq fəaliyyətinə yardımçı alətlərə çevrilib. QHT sektoru, azad mətbuat məhv edilib və ya ələ alınıb.

Hakimiyyət müqavimət göstərməkdə davam edən tək-tək siyasi xadimləri, jurnalistləri, bir-iki saytı, sıradan çıxara bilmədiyi bir-iki partiyanı, bir-iki ictimai təşkilatı daha böyük nifrətlə və aqressivliklə təqib edir.

Dövlət resursları ilə yanaşı milyardlarla maliyyə vəsaiti hesabına təşkil edilmiş əlavə qüvvələr- təbliğat-təşviqat maşını, nəzarət altında olan KİV-lər, televiziyalar, yüzlərlə qeyri-hökumət təşkilatları, rəsmi və qeyri-formal güc strukturları, hakimiyyətin nəzarəti altında fəaliyyət göstərən siyasi partiyalar, hər yerə, o cümlədən təşkilatlarımıza yeridilmiş agentura seti, daha nələr-nələr üzərimizə gəlir. Bəzi keçmiş silahdaşlarımız da TV-lərdən üzərimizə od püskürür, bəziləri müxtəlif bəhanələrlə aradan çıxır. İndi duruş gətirmək həmişəkindən daha çətin olduğu kimi, daha vacib və şərəflidir. İndi duruş gətirənlərin adı daim hörmətlə anılacaq!"

**Müsavat Gənclər Təşkilatının sabiq sədri Tural Abbaslı isə bildirib ki, Vurğun Əyyubun hansısa rayon təşkilatının rəyi ilə partiyadan çıxarılması absurddur, çünki Müsavatda uzunmüddətli ənənə var ki, partiyanın tanınmış simaları və rəhbər şəxsləri rayon təşkilatı səviyyəsində müzakirə ilə partiyadan xaric olunmur. Onların taleyini 4 nəfərlik iclasda həll etmək olmaz:** "Vurğun bəy 4 nəfərin iştirak etdiyi iclasla xaric olunub və bu iclasda heç bir prosedur qaydası yerinə yetirilməyib. Bunlar da onu göstərir ki, Vurğun bəyin partiyadan uzaqlaşdırılması yuxarıdan, partiya rəhbərliyindən gələn tapşırıqla və çox tələm-tələsik reallaşdırılıb".

**T.Abbaslı Vurğun Əyyubun Müsavatdan çıxarılmasının partiya üçün ayıb olduğunu deyib:** "Bu hal təkcə rayon təşkilatının yox, bütün partiyanın ayıbıdır və Arif Hacılının ayağına yazılır. Arif Hacılının bu addımı rəqiblərini partiyadan uzaqlaşdırmaq siyasətinin davamıdır və bu heç də nə partiyanın, nə də rəhbərin imicinə müsbət rəy gətirmir. Bu tendensiya çox yanlışdır. Sabah yenə qurultay olacaq və tutalım ki, mən başqan seçiləcəm, onda mən də rəqibim Arif Hacılını partiyadan çıxarım? Bu, necə təsir edər? Rəqibləri partiyadan uzaqlaşdırmaq düzgün olmayan yanaşmadır. Mən Vurğun Əyyubun partiyadan çıxarılmasını qətiyyətlə pisləyirəm, bunun əleyhinəyəm və tələb edirəm ki, həmin qərar ləğv olunsun".

**Müsavat Partiyası Suraxanı rayon təşkilatının keçmiş sədri Boran Əziz isə partiyadan istefa verib. Hafta.az-a açıqlamasında bu barədə Suraxanı rayon təşkilatının sədri Rövşən Dəmirli bildirib. O bildirib ki, Boran Əziz istefa ərizəsində bu fikirləri vurğulayıb:** "Müsavat Partiyasının keçirilmiş qurultayından sonra Vurğun Əyyubun bəzi siyasi addımlarını təqdir etməsəm də, son günlər ona qarşı aparılan qisasçı, kin və qərəz kampaniyasına, repressiv tədbirlərə qəti etirazımı bildirərək Müsavat Partiyasının sıralarından istefa verirəm".

Müsavat başqanının müavini Səxavət Soltanlı isə bildirib ki, kim olmasından asılı olmayaraq döyüş zamanı silahını atıb, səngəri tərk edib qaçanlara görə döyüşənləri ittiham etmək ən azı ədalətsizlikdir. Qaçan istər əsgər olsun, istər zabit.

❑ **Etibar SEYİDAĞA**

# Qərb postsovet ölkələrini Rusiyanın caynağından xilas edib?



**Zahid Oruc:**
"6 postsovet ölkəsi indi Qərbin maraqlarını Rusiya ilə uzlaşdıra bilməməsinin ağrısını çəkir"



**Fərrux Məmmədov:**
"Rusiya caynağı ilə təkbaşına qala bilərik"

**"Rusiya zəiflədikcə, Qərb demokratikləşmənin faizini yüksəltmək tələbləri ilə Azərbaycanın üzərinə gələcək. Qərb artıq deyir ki, biz Rusiyanı zərərsizləşdirdik, sizin Rusiya kimi bir təhlükəniz yoxdur, demokratiyanın faizini qaldırın. Rusiya Ukrayna hadisələrindən sonra artıq qonşu ölkələrlə münasibətdə daha az aqressivdir. Aqressivlik tamam yoxa çıxmayıb, bəyanatlar davam edir, hərəkətlər isə azalıb".**

Bunu Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə "Yeni Müsavat"a geniş müsahibəsində deyib. Partiya rəhbərinin fikrincə, 1 il-1,5 il əvvəllə müqayisədə şimal təhlükəsi barədə fərqli sözlər demək mümkündür: "2015-ci ilin may ayında artıq Avrasiya Birliyi Sovetlər Birliyinin yenilşmiş modeli kimi tam şəkildə fəaliyyətə başlamalı idi. Varmı ortada belə bir birlik? Yoxdur. Buna görə biz hamımız Ukraynaya minnətdar olmalıyıq. Rusiyanın bu zəifləmə məqamında Qərb Azərbaycana deyir, demokratikləşmənin faizini qaldıracaqsız, daha Rusiya təhdidi əvvəlki deyil; bizə deməyin ki, siz bizi bir tərəfdən sıxırsız, Kreml bir tərəfdən, İran da bir tərəfdən; əgər kiçik də olsa, demokratik açılım etsək, kataklizmlər yaranar". Doğrudanmı Qərb Rusiyanın postsovet ölkələrinə, xüsusilə də Azərbaycana yönəlik təhlükələrini neytrallaşdıra bilib? Ekspertlərin bununla bağlı maraqlı yanaşmaları var.

**Deputat, Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü Zahid Orucun sözlərinə görə, əslində Rusiya ilə aparılan savaşın Ukraynaya qədər irəliləməsi bütün Qərb dövlətlərinin uğuru sayıla bilməz:** "Yəni ərəb dünyası və Yaxın Şərqdən, o cümlədən Amerika qitəsindən əlini çəkməyən Rusiyanın öz qonşuları uğrunda savaşmağa məcbur edilməsi, NATO infrastrukturunun ən yaxın ərazilərə gəlib çatması hələ atlantistlərin qələbəsi sayıla bilməz. Çünki ABŞ-ın Avropanın siyasi və iqtisadi məkanından vurub çıxarmağa çalışdığı rus maraqları avtomatik olaraq keçmiş sovet məkanına yönəlib və buradakı təhlükəsizlik məlum toqquşmalardan heç nə qazanmayıb. Üstəlik, nə Fransa, nə də Almaniyanın xarici siyasət mənafeləri rəsmi Moskvanın belə təcridetməyə məruz qalmasından fayda götürmür, beynəlxalq məkanda həmin ölkələrin çəkisini artırmır".

**Z.Oruc hesab edir ki, əksinə, qoca qitənin iki nəhənginin hərbi və siyasi elitası rusların zəifləməsi ilə onların da ABŞ qarşısında asılılığının gücləndiyini yaxşı görür və dərk edirlər:** "Ona görə Azərbaycanın yerləşdiyi məkanın geopolitikası, məsələn, on il əvvəlki xarici qüvvələr nisbəti ilə müqayisə edəndə Qərbin ziyanına xeyli dəyişib və burada Qafqaz xalqlarını günahlandırmaq yanlış olar. Əslində daha açıq deyilsə, Avropa Birliyinin məlum qonşuluq siyasəti iflasa uğrayıb və birmənalı seçimə vadar edilən ölkələrin hamısı ərazi itkisinə məruz qalıblar. Nə qədər inkar olunsa da, təsir dairələrinin yaradılması siyasətinin qüvvədə qaldığı faktdır və 6 postsovet ölkəsi indi Qərbin maraqlarını Rusiya ilə uzlaşdıra bilməməyinin ağrısını çəkir. Ona görə Azərbaycandan həlledici seçim tələb edənlər faktiki olaraq bu ölkəyə verdikləri müasir texnologiyanın, siyasi və hüquqi standartların əvəzində heç bir təhlükəsizlik zəmanəti olmayan riskli bir oyunu qarşımıza qoyurlar".

**Deputat deyir ki, Rusiya Ukrayna üzərindən Qərblə apardığı davanı əslində bütün antiamerikaçıların əvəzindən aparır və faktiki olaraq son savaş fonunda bu ölkənin beynəlxalq izolyasiyası baş tutmayıb, müttəfiqləri azalmayıb:** "Ona görə ABŞ Cənubi Qafqazda itirdiyi mövqelərini geri qaytarmaq üçün bir vaxtlar Yeltsinin sərgilədiyi davranışlara bənzər hərəkətləri təkrar etməyə başlayıb. Rusiyanı "neytrallaşdıran" dövlətlər və siyasət Avropada deyil, əksinə, MDB bir siyasi vahid kimi özünü qorumaq üçün indi Rusiyanın nüfuz dairəsinə daha çox daxil olublar".

**NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov isə hesab edir ki, SSRİ dağıldıqdan sonra Qərbin iki əsas hədəfi var idi:** "Birinci hədəf Avropa ailəsini bir böyük demokratik birlik altında toparlamaq, onları NATO-ya üzv etmək; ikinci isə postsovet ölkələrini Rusiya təsirindən tam şəkildə azad etmək. Amerika demək olar ki, ilk 20 ildə qarşıya qoyduğu planın ilk hissəsini uğurla həyata keçirdi və Avropanı bir çətir altında birləşdirə bildi. Lakin ikinci plan hələ də həyata keçməkdədir və görünən odur ki, hələ buna ən azı 10 il gərəkdir. Avropa ölkələrindən fərqli olaraq digər postsovet ölkələrinin coğrafi mövqeyi onları Rusiya caynağından tam xilas edə bilmir. Rusiya Qərbdən fərqli olaraq demokratik siyasət yürütmədiyi üçün hər an həmin mövcud dövlətlərdə xaos və terror törətmə gücünə hələ də malikdir". **F.Məmmədov xatırlatdı ki, bizim qarşımızda örnək kimi 2008-ci il Gürcüstan və 2014 Ukrayna hadisələri var:** "Baxmayaraq ki, Ukrayna Avropanın demək olar Şərqə həm də qapısı sayılır, hazırda təhlükə hələ də mövcuddur. Qərb və Avropa bunun minimuma salınması üçün yeni strateji plan üzərində işləyir. Əminəm ki, tezliklə bu planın həyata keçəcəyini görəcəyik. Cənubi Qafqaz, onun təhlükəsizliyi və Avropa Birliyinə inteqrasiyası da həmin strateji planın əsas xəttini təşkil edir. Burda iki dövlət əsas rol oynayır: Gürcüstan və Azərbaycan. Dağlıq Qarabağda keçirilən qanunsuz seçkilər və hətta Rusiya tərəfinin bu seçkiləri tanıma çağırışları etməsi təhlükənin hələ də mövcud olmasından xəbər verir. Seçkinin tanınması ilə bağlı çağırışlar Rusiya dövlətinin siyasi mesajıdır. Riqa sammiti yaxınlaşan bir vaxtda bu cür çağırışın edilməsi böyük təhdid, həm də siyasi şantajdır". **Ekspertin fikrincə, bu da o deməkdir ki, sammitdə imzalanacaq hər hansı sənəd işğalınızın başlanğıcı ola bilər:** "Qərb də bu məsələni bilir və bu təhlükənin sovuşması üçün hazırda Avropa Birliyi ilə danışıqlar aparır. Azərbaycanın son bir ayda yürütdüyü anti-Qərb siyasəti isə bizə sadəcə zərər verir. Bunu Azərbaycan hökuməti anlamalıdır və xarici siyasətdə köklü dəyişikliyə getməlidir. Əks təqdirdə, Rusiya caynağı ilə təkbaşına qala bilərik".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 98 (6126) 7 aprel 2015



**Rusiya prezidenti Vladimir Putinin Moskvada faşizm üzərində qələbənin 70 illiyini təntənəli şəkildə bayram edib qlobal hadisəyə çevirmək, bununla da özünə əlavə siyasi xallar qazanmaq planı alınmadı. Artıq bunu əminliklə yazmaq olar.**

# Ərdoğanın Putindən ilk ciddi "soyqırım" revanşı

## Türkiyə prezidenti Kreml başçısının İrəvan səfərinə görə 9 may paradını boykot edib Qərbin yanında yer aldı; Ankaranın Moskvaya sürprizlərinin davamı da gələ bilər...

Mayın 9-da Putinlə bir cərgədə yalnız MDB-nin bəzi dövlət başçıları, BMT baş katibi Pan Gi Mun, bir neçə latındilli ölkənin rəhbərləri, Serbiya, Zimbabve, Somali prezidentləri, Yunanıstan baş naziri dayanacaq. Hətta Şimali Koreyanın və Belarusun liderləri də Moskvaya ziyarət etməyi özlərinə rəva bilmədilər.

Doğrudur, Çin və Hindistan liderlərinin də mərasimə qatılacağı deyilir. Ancaq onlar da tədbirə möhtəşəmlik gətirə bilməyəcəklər, çünki 2-ci Dünya müharibəsində əsas iştirakçı dövlətlərin mütləq əksəriyyəti, o sırada müttəfiq ölkələr (ABŞ, İngiltərə, Fransa) üstəgəl, İsrail, Kanada, Avstraliya rəhbərləri Moskvaya getməyəcəklər.

Ən önəmlisi də məhz Qərbin Ukrayna hadisələrinə görə 9 May qələbə törənini boykot eləməsidir. Kreml özünü o yerə qoymasa da, bu, əslində ona qarşı sanksiyaların yeni formasıdır. Krımı işğal eləməklə beynəlxalq hüququ tapdamış Rusiyanı təcrid siyasətinin növbəti praktik təzahürüdür, nəhayət, beynəlxalq rəyi qulaqardı edən ölkələrin hamısını eyni aqibətin gözlədiyi barədə qiymətli mesaj-anonsdur.

Məsələ də ondadır ki, 70-75 il öncə qonşu ölkələrin ərazilərini bir-bir yağmalayan faşizm Almaniyasının üzərində qələbəni qutlamağa hazırlaşan bir ölkənin -Rusiyanın özü qonşusunun ərazisini zorla ələ keçirirsə, faşistlərin hərəkətini XXI əsrdə təkrarlayırsa, o zaman hansı mənəvi haqla qələbənin 70 illiyini bayram edir? Hələ üstəlik, bunun təntənəli olmasına çalışır, dünya liderlərini öz yanında görmək istəyir...

Amma Putin heç nə olmayıbmış kimi, bu təntənəyə çox ümidli idi. Di gəl, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da onun dəvətini geri çevirdi. Artıq bəllidir ki, Ankaranı Qırmızı meydanda Moskvadakı səfir Ümid Yardım təmsil edəcək. Bu imtinanı Türkiyədən Rusiyaya yubiley zərbəsi və yaxud Putinin 24 aprel İrəvan səfərinə görə ilk revanş aktı da adlandırmaq olar.

**70-75 il öncə qonşu ölkələrin ərazilərini bir-bir yağmalayan faşizm Almaniyasının üzərində qələbəni qutlamağa hazırlaşan bir ölkənin -Rusiyanın özü qonşusunun ərazisini zorla ələ keçirirsə, faşistlərin hərəkətini XXI əsrdə təkrarlayırsa, o zaman hansı mənəvi haqla qələbənin 70 illiyini bayram edir?**

Hələ Putin saxta soyqırımın 100 illik yubiley mərasiminə qatılmaq üçün İrəvana səfər qərarı verəndə Türkiyənin buna praktik kontur-addımlarla cavab verəcəyi təxmin edilmişdi. Hərçənd Putin səfərin Ankarada və Bakıda yaradacağı qıcığı azaltmaq üçün mümkün olanı eləmişdi: aprelin 24-də nə Ermənistanda, nə də Rusiyada Türkiyə əleyhinə kütləvi etiraz aksiyalarının keçirilməsinə imkan verməmiş, öz çıxışında "erməni soyqırımı" ifadəsini yalnız dolayısıyla işlətmiş, Dağlıq Qarabağdakı separatçı rejimin başçısı Bako Saakyanın 24 apreldə İrəvanda görünməsini yasaqlamış, gecəni İrəvanda qalmamışdı. Bundan başqa, Çanaqqala zəfərinin 100 illiyi ilə bağlı yubiley törəninə kifayət qədər yüksək ranqlı rəsmi şəxsi - Rusiya Dövlət Dumasının spikeri Sergey Narışkini yollamışdı.

Göründüyü kimi, sadalananlar Ankaranın "könlünü almaq" üçün yetərli olmayıb. Olması mümkün də deyildi. Rusiya prezidentinin İrəvan ziyarətinə və orada verdiyi açıqlamalara rəsmi Ankaranın sərt reaksiyalarından aydın idi ki, qardaş ölkə mütləq adekvat tədbirlər görəcək, revanş xarakterli addımlar atacaq.

Onlardan biri artıq reallaşıb. Halbuki Rusiya yeni dönəmin özəlliklərini, düşdüyü durumu, Ankaranın Moskvaya uzatdığı tarixi əli və fürsəti nəzərə alsaydı, o zaman 9 mayda dünyanın sayılıb-seçilən dövlətlərdən birinin - Türkiyənin liderini yanında görə bilərdi - bu, Ankaranın imici üçün ziyanlı olsa belə. İrəvana isə Putin aprelin 24-də baş nazir, keçmiş prezident Dmitri Medvedyevi də yollaya bilərdi və bununla dünya dağılmazdı.

***

İndi isə Ərdoğan istədə də, istəməsə də 9 may boykotuna qoşulmaqla, Qərblə bir cərgədə yer almış oldu. Putinin lüzumsuz İrəvan səfərinin Rusiya üçün acı nəticələrindən biri məhz budur - Ankaranın Moskvaya qarşı təzədən Qərblə eyni mövqe sərgiləməyə başlaması.

Hələ Türkiyənin başqa revanş tədbirləri də ola bilər. Hərçənd Rusiya ilə ilkin qaz anlaşmaları, AES tikintiləri ilə bağlı müqavilələr qardaş ölkəyə də çox gərəklidir. Bu xüsusda "Kommersant" qəzeti iki ölkə arasında nəhəng layihələr sırasında mühüm yer tutan "Türk axını"nın siyasi proseslərə görə yubandığını iddia edib. Qəzet bildirir ki, Rusiyanın "soyqırım" addımlarına Ankara "Türk axını"nı gecikdirməklə cavab verə bilər.

Söz yox ki, belə bir addım Rusiya ilə bərabər Türkiyənin də maraqlarına uyğun deyil və müstəsna olaraq Moskvanı sanksiyalarla zəiflətməyə, onun Ankara ilə əlaqələrini soyutmağa çalışan Qərbin işinə yarayır. Lakin nə etməli? Bu, Türkiyənin günahı deyil, Türkiyə haqq etmədiyi bir münasibətlə üzləşib və cavab addımları qaçılmaz olub. Axı dövlətlərin iqtisadi maraqları ilə yanaşı, qürurları da var. O ki ola Türkiyə kimi dövlət.

❑ **Siyasət şöbəsi**



# Əhməd Davudoğlu MHP-nin İqdır təşkilatının qonağı olub

**Türkiyənin baş naziri Əhməd Davudoğlu və xanımı Sara Davudoğlu parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində İqdırda olarkən MHP-nin Iqdır Seçim Koordinasyon Mərkəzinə də gəlib. Musavat.com-un xəbərinə görə, bu barədə deputatlığa namizəd İsa Yaşar Tezelin facebook səhifəsində məlumat verilib.**

Bildirilir ki, baş nazir və xanımı MHP seçki qərargahında ehtiramla qarşılanıb. Baş nazir MHP-nin namizədlərinə "xeyirli-uğurlu olsun" diləklərini çatdırıb.

Qeyd edək ki, namizədlərdən biri olan İsa Yaşar Tezel Azərbaycan əsillidir və ölkəmizdə olduqca geniş çevrədə dostları var. İsa Yaşar Tezel hələ 1993-cü ildən vaxtaşırı ölkəmizə səfərə gəlir. Axırıncı dəfə o, Müsavatın qurultayında iştirak edib.

İsa Yaşar Tezel Türkiyə böyük Millət Məclisində təmsil olunmaq üçün ən şanslı namizədlərdən biri sayılır.

# Bir sualdan qaçmaq istərkən...



**Hüseynbala SƏLİMOV**

**Ola bilsin, yenə də deyəcəklər ki, bu, elə adamlar tapır ki... Ona görə ki, bəlkə elə onun da adı bizim indiki gənclərə heç nə demir. Mən ona, sadəcə, Rezo deyəcəm, bəli, gürcü rejissoru Rezo...**

Qərəz, mayın 3-də rejissor Rezo da dünyasını dəyişdi. Bir vaxt çoxlarını valeh edən böyük gürcülərdən daha birisi bizi tərk etdi...

Bəlkə də mən dərhal onun ən populyar, ən tanınan və ən sevilən filminin-"Əsgər atası" filminin adını çəksəydim çoxu qayıdacaqdı ki: "Əşi, həəə... Onu deyirsən? Bunu bayaqdan de dəəə..."...

Amma nə etmək olar? Bəndəniz rejissor taleyinə sadiq qalmaq istədi - məsələ ondadır ki, rejissorlar həmişə öz filmlərindən və bu filmlərə çəkilən aktyorlardan daha az tanınırlar...- bu, onların taleyidir və onlar demək olar ki, həmişə bununla barışırlar...

Bilirsiniz, məni bu adamların gedişində təsirləndirən və mütəəssir edən nədir?

Bizi böyük bir epoxa tərk edir. Biz onu çox yamanladıq, çox qarasınca deyindik, üstündən xətt çəkmək istədik, adınan imperiya deyib onu rədd etdik, guya ki, azad dövlət və azad cəmiyyət qurmaq istədik. Amma həmin epoxanın bizi tərk edən insanlarının yerini doldura bildikmi?...

Bu sual adama rahatlıq vermir. Ora qovrulursan, bura qovrulursan, özünü bu üç milyonluq şəhərin o küncünə vurursan, bu küncünə vurursan, amma hər yerdə qarşında bir sual görürsən. Sanki onu böyük bir plakata yazıb düz sənin qənşərində tutublar: "Bəs siz özünüz nə etdiniz?"...

Bu sualı bəndəniz özü üçün də qəbul edir. Əlli yaşında elə bil hər yandan, hər tərəfdən yalnız bir sual eşidir: "Çox yazdın, çox ittiham etdin. Amma əvəzində özün nəsə yaradа bildinmi?"... Cavab yoxdur. Daha doğrusu, mənim cavabım yoxdur...

Bəlkə də bu sətirlərin müəllifini bağışlamaq da olardı - o, bir yazar və demokratiya təbliğatçısı olmaqdan savayı qarşısına bir məqsəd qoymamışdı...

Amma özlərini "böyük" ssenarist, rejissor və yazıçı hesab edənlər də az deyildi bu ölkədə. Özlərindən yaşlıların qarasınca deyinməklə düşündülər ki, bəli, beləcə böyüyəcəklər və artacaqlar...

Amma... Amma bir gün məlum oldu ki, onlar Rezonun "Əsgər atası" filminin "kopiya"sını çəkməkdən başqa heç nə bacarmırlar...

Bilirsiniz, bəndəniz bəlkə də məsələni bir az kəskin qoyur. Mədəniyyət elə bir şeydir ki, hər il dahi yetişmir. Nizami ilə Nəsimini iki yüz il ayırır, Nəsimi ilə Füzulini iki yüz il ayırır...

Yox, bunu başa düşmək iqtidarındayıq. Amma bir məsələ var ki, Kann festivalı hər il keçirilir, Oskar mükafatları hər il verilir... Təbii ki, mən burada R.İbrahimbəyovun adını çəkib bir az sakitləşə bilərdim - Gürcüstanda Rezo vardısa, burada da İbrahimbəyov vardı...

Amma elə İbrahimbəyovun özü də həmin epoxanın adamı deyilmi? Onun üçün nəinki bizim "yeni zaman"da və hətta qurduğumuz "yeni" dövlətdə və cəmiyyətdə yer tapılmadı. Elə Rezo da Rusiya ilə Gürcüstan arasında dolaşır, gah ora gedir, gah da bura gəlirdi...

Gürcüstanda bir gənc baş nazir vardı. Moskva Universitetini bitirmişdi. Bir dəfə bir yazıdan oxudum ki, bu gənc baş nazir özü üçün nə az, nə də çox- 90 milyon dollar toplaya bilib...

Nə demək olar? Bəlkə elə "Bəs siz nə etdiniz?" sualına bizim "yeni epoxa"nın siyasət adamlarının və ideoloqlarının cavabı budur: "Milyonlar topladıq..."...

Amma mən Rezonun bir müsahibəsini dinləmişdim. Deyirdi ki, öz yeni filmi üçün Rusiyada vəsait axtarmaq niyyətindədir...

Bütün bu yazılanlardan bir bədbinlik də duyula bilər. Müasir gürcü kinematoqrafında nələr baş verdiyindən xəbərsizəm. Bir dəfə mənə gənc bir gürcü yazıçısının kitabını vermişdilər. Dedilər ki, ədəbiyyatda "yeni söz"dür...

Birnəfəsə oxudum o kitabı. Amma gördüm ki, yox, bu, heç Nodar Dumbadze də deyil. Hətta həmin gənc yazıçının adını da yadımda saxlaya bilmədim - əsərlərini unutduğum kimi elə adını da unutdum...

Amma Daneliyanı, Rezonu, onların çəkdiklərini unutmaq olarmı? Hətta həmin filmlərdəki çox şey - bəzi süjetlər, aktyorların yerişi-duruşu, dedikləri sözlər az qala zərb-məsələ çevrilib...

Sadəcə, nə qalır? Bu günə qədər yazılanlara, çəkilənlərə görə şükür etmək. Ona görə ki, gürcülər bir tərəfə, Azərbaycanda bu illər ərzində "Dantenin yubileyi" yazılmadı, "Bir cənub şəhəri" çəkilmədi...

Nə edək? Hamısını "keçid dövrü"nün adına yazaq? Axı bu dövrdə çoxumuzun günü heç də pis keçmədi...

YENİ MÜSAVAT
N 98 (6126) 7 may 2015



# Gəzinti çubuqları

Zamin HACI
zaminhaci@mail.ru

**Birdən görürsən məmur tayfamızdan elə kövrək, səmimi, ekzotik açıqlamalar gəlir, az qalırsan sən analoqu olmayan inkişaf yolumuzun tozlu-pasaqlı qırağında oturub zar-zar ağlayasan. Örnək üçün, bu yaxında səhiyyə naziri Oqtay müəllim belə söyləmişdi: "İnsanları aldatmaq olmaz". Birbaşa elə bu cürə də demişdi. Görün nə humanist dövlətdə ömür sürürük. Manıs demişkən, lap, ömür sürüb yaşamaq, ən böyük səadətdir bizə! Daradadaram!**

Dünyanın heç bir başqa dövlətində bulvarın uzunluğu 16 işıq ili - kilometr deyildir və başqa heç bir ərazi tapa bilməzsən ki, orda nazir "İnsanları aldatmaq olmaz" desin. Azərbaycan deyiləndə ayağa dur ki, Sonra evini gizlicə uçurtmasınlar! Bunu da şair yaman deyibdir.

Doğrudan da mən indiyə qədər zənn edirdim bütün dünyada Səhiyyə Nazirliyi ancaq "Siqaret çəkmək sizin sağlamlığınıza ziyandır" elanı verir, amma yalan haqda da danışırmış. Hətta Oruell-dən həvəslənərək biz öz Səhiyyə Nazirliyimizi indən sonra Həqiqət Nazirliyi adlandıra bilərik. Deputatlarımızı isə Napoleon, Boksyor, Snouboll, Bencamin adlandırarıq. Qoy xarici düşmənlərimizin ürəyi partlasın. Tfu! Hara baxırsan xarici düşməndir. Uğurlu xarici siyasəti necə qayırıblarsa bütün planetdə bir yönlü-yanlı-başlı siyasi müttəfiq də yoxdu. Hamı düşməndir. Hamı ermənipərəstdir. Yalnız biz müstəqilik və planetə boyun əymirik. Kim bilir, bəlkə də Ramiz müəllim Yodadır. Ceday qılıncını bulvarda, kanalizasiyanın axdığı hissədə gizlədiblər.

Bax, "28 May" metrosunun uzun illərdir sirli şəkildə bağlı saxlanılan qapısı srağagün qəfildən açılıb, səncə, bunun massonlarla heç bir əlaqəsi yoxdur? Var, ay dünyadan xəbərsizlər ordusu, ey zəhmətkeş sakin qırıntıları! Həmin giriş əslində "Ulduz qapısı" idi, orda Metro Tağı lazer silahıyla şüalanıb başqa planetlərdəki qara dəliklərə yola düşürdü. Siz hər dəfə 20 qəpiklik kartı aparata sürtüb qatara minəndə o sürtünmə ilə ulduz gəmisinə enerji verirsiniz, ey qafillər! İndi Metro Tağı Andromeda buluduna çatıb Aelita ilə evlənib, bu üzdən "Sim-sim" qapısı, nəhayət, açılıb. Yoxsa kim izah edə bilər, o qapı 77 ildir niyə bağlı saxlanırdı? Hi?

Yaxud prezidentin sərəncamı ilə bulvarın 19-cu parsekində yerləşən Dövlət Bayrağı Meydanının müdiri, rəsmi "Elman Türkoğlu" işdən çıxarıldı. Səbəb nədir? Adam neyləmişdi? Bəlkə yeganə dövlətçilik problemimiz orda da yaşanmışdır: bayrağın zolaqlarını düzgün asmayıblar? Bəlkə külək əsib bayrağı cıranda müdir işdə yoxmuş, Avropa Oyunlarına bilet satmağa gedibmiş? Bəlkə dilim-ağzım qurusun, əlim qırılsın bunu yazdığım yerdə, oxuyanlar da kor olmasın, yazıqdırlar: dövlət bayraqdarımız da ermənipərəst çıxmışdır? Kim bilir... Heç kim heç nə bilmir. Heç nə unudulmur, hər şey yaddan çıxır. Qoy millətdə ruh yaşasın! *(Çoxdan yazmırdım, gördüm ruh ölə bilər)*.

Sonda isə göz dəyməsin, aktivləşərək hətta Zakir müəllimi də qəfil geridə qoyan Artur müəllimin Nazirlər Kabineti idarəsinin bir qərarını diqqətinizə çatdıraq. Əgər yaxın günlərdə dağa-zada çıxmaq istəsəniz biləsiniz ki, bu şeylərin dövlət idarəsindən 1 günlük prokat qiyməti *(guya icarə yazanda bizim söz olur, zırt)* aşağıdakı kimidir:

Buz baltası - 10 manat
Gəzinti çubuqları - 3 manat
Kəndir - 3 manat
Dimdikli papaq - 2 manat
Termos - 3 manatdır.

Bu şeyləri dövlət idarəsindən alıb dağa dırmaşarkən baş nazir Artur Rasizadə haqda dərin düşüncələrə dalmaq isə müftədir. Hələlik. Ola bilsin bir azdan buna da gündəlik tariflər qoyulsun. Çünki sən düz adam olsan dağa dırmaşanda dövlət rəhbərliyi haqda fikirləşməzsən. Kəkotu yığarsan, quzuqulağı gövşəyərsən, nə bilim, tütək çalıb qoyunlara konsert verərsən.



# İqbal Ağazadə: "İqtidara sual verirsən, deyir, demokratiya belə olur"

## Millət vəkili, Ümid Partiyası sədri: "Seçki bizim üçün noyabrın 1-də deyil, avqustun 31-də bitir"

**Azərbaycan önəmli bir mərhələyə qədəm qoyub. Hakimiyyət böyük maliyyə yatırdığı Avropa Oyunlarından qazanacağı dividentləri hesablamaqla yanaşı, noyabrda gözlənilən parlament seçkisinin hazırlıqlarına da başlayıb. Bu arada iqtidar mediasında anti-Qərb çıxışları genişlənib. Digər tərəfdən, iqtidar ictimai çəkisi o qədər də yüksək olmayan partiyalarla dialoqu davam etdirmək niyyətini açıqlayıb.**

"Yeni Müsavat"ın bugünkü ictimai-siyasi gündəm, ölkədə, eləcə də beynəlxalq aləmdə Azərbaycanla bağlı gedən proseslər haqqında suallarını Ümid Partiyasının sədri İqbal Ağazadə cavablandırır. Söhbətin ikinci hissəsini təqdim edirik.

*(əvvəli ötən sayımızda)*

***- Sizcə, seçkiöncəsi çıxışlarda həqiqətləri gizlətmək gərək idi?***

- Gizlətmək gərək deyildi, yox. Baxın, mən xəstəyəm, siz də həkim; siyasətçi elə cəmiyyətin həkimidir... Mənim bədənim hansı dərmanı qəbul edə bilirsə, həkim mənə o dərmanı verməlidir. Məni öncə ayağa durğuzmaq, sonra tam müalicə etmək lazımdır. Cəmil Həsənlinin elədiyi insanları yerə yıxıb öldürmək idi.

***- Deputatlığa namizəd olaraq siz seçkidə seçiciyə nə deyəcəksiz?***

- Mənim mesajlarım hazırdır. Mən fərqli şəkildə işləyirəm. Hələlik onu sizə aça bilmərəm.

***- Niyə?***

- Çünki partiyalararası rəqabət gedir. Bizim "125-lər" Siyasət Klubunun bir çərçivəsi var. Bu gün biz seçkinin ikinci mərhələsindəyik. May ayının sonunda bu ikinci mərhələ bitəcək. Ondan sonra artıq gözümüzün qarşısında seçki ilə bağlı aydın mənzərə açılacaq. Üçüncü mərhələ isə avqustun 31-də başa çatacaq. Seçki bizim üçün noyabrın 1-də deyil, avqustun 31-də bitir. Ondan sonra sadəcə prosedurlar qalır. Biz o prosedurları yerinə yetirəcəyik, 450 imzamızı toplayacağıq, sənədlərimizi MSK-ya verəcəyik, plakatlarımızı yayacağıq. Seçki bizim üçün 4 aydan sonra tamamlanacaq. Noyabr ayına yalnız bir məsələ qalacaq - o yığdığımız baza əsasında seçici bizə səs verəcək, ya yox. Amma Azərbaycan müxalifəti seçki təbliğatının hələ avqustun 31-də başlayacağını güman edir. Ona görə də uduzur. 23 günə nə edəcəksiz? Hansı seçicinin qapını döyəcəksiniz? Hə, düşünürsünüzsə ki, seçici bu gün çıxışlara, mövqelərə reaksiya verib də ardınızca gələcək, yanılırsınız. Bu belə deyil, olmayacaq da. Çünki hakimiyyətin əlindəki bazalar o qədər güclüdür ki, rəqabət aparmaq çox çətindir. Bunu süni yollarla yaradıb, amma yaradıb. Amma bu o demək deyil ki, bayaq Rauf bəyin dediyi kimi, yığışıb hamı desin ki, gəlin müxalifətçiliyi buraxaq.

***- Effekti yoxdur. Minlərlə insanı da yazıq edirsiniz. 20-25 ili gedib insanların...***

- Yazıq edənlər düşünsün.

***- Siz onların arasında yoxsunuz?***

- Mən onlarla deyiləm.

***- Sizin partiyadakılar məmnundurlarmı talelərindən?***

- Telələrindən məmnun olmaya bilərlər. Ancaq ən azı, mübarizənin yeni mərhələsi üçün hər gün çalışırlar. Başqa yolumuz yoxdur.

***- İqbal bəy, deyirsiz ki, xalq hakimiyyətdən ona səs verməyəcək dərəcədə narazıdır. Xalqın nəbzinin üzərində bizim də əlimiz var. Xalq seçkiyə inanmır axı.***

- İnandırmaq lazımdır.

***- Necə inandıracaqsız? Efir yoxdur, təmas yoxdur, mitinq imkanları yoxdur, pul da yoxdur.***

- Çox gözəl. Demək, başqa yolu var.

***- Milyardlarla vəsaiti, çoxlu insan resursları olan hakimiyyətlə mübarizədə hansı taktikanı seçəcəksiz ki, uğur qazana biləsiniz?***

- Bizim seçki taktikalarımız var. Onlardan birini sınaqdan keçirdik. Biz bunu yanvar ayından mart ayının sonuna qədər sürdürmüşük. İstəməzdim onu açam. Amma çox effektivdir. Bununla Türkiyədə AKP iqtidarı uzun müddət məşğul olub. AKP 3 dönəmdir bu sistemlə bütün seçkiləri udur. Kim istəsə götürüb araşdıra bilər, mən bu haqda danışmaq istəmirəm. Tarixdə çox belə misallar olub. Yollar var. Çarəsiz deyilik. Süleyman Dəmirəl demiş, "demokrasilərdə çarə tükənməz". İnanmamaq seçicinin haqqıdır, inandırmaq isə bizim vəzifəmizdir. Biz elə bilirik ki, yaxşı çıxış eləyəcəyik, seçici deyəcək, sağ ol, yaxşı danışdın. Başqa yollar, vasitələr var. Seçici ilə birbaşa təmaslara baş vurmaq lazımdır. Yenə deyirəm, mənə icazə verilmir, mən onu açım. Yəqin ki, onu biz seçki başlayanda açıqlayacağıq.



**"Müxalifətin mesajlarında sabitliyin bir elementi belə yoxdur"**

***- Düşünək ki, seçki olub, qələbəni təmin edəcək səs də yığmısız, ancaq qələbəniz tanınmır. O halda hansı addımları atacaqsınız?***

- Onun da mexanizmləri var. Mən sizə sual verirəm, bütün son seçkilərdə Azərbaycan müxalifətinin müşahidəçi qismində seçki məntəqələrində nə qədər adamı vardı?

***- Çox az.***

- Demək olar ki, müşahidəçi yox idi. Namizədlər, bütünlükdə müxalifət seçki prosesinə nəzarət etməyəcəksə, qarşı tərəf də öz bildiyini eləyəcək.

***- Bütün günah elə müxalifətdədir? Dəfələrlə yaşanıb - polis müşahidəçiləri məntəqəyə buraxmır, döyür, məntəqə sədrləri, üzvləri süni qalmaqal yaradıb müşahidəçiləri məntəqələrdən çıxarır, hətta jurnalistləri döyür, onlar səslərin sayılması prosesinə yaxın buraxılmır.***

- Bu durumu dəyişmək müxalifətin üzərindədir. Biz iqtidarın nələr etdiyini, seçkiyə qədər, seçkidən sonra hansı metodlarla hərəkət etdiyini bilirik. Əgər bunlarla razılaşmış olsaydıq, prosesə qatılmazdıq. Deyək ki, bu səhvdir, yanlışdır. Bizim vəzifəmiz nəticələri dəyişməkdir. Biz bəzən deyirik ki, bunun səbəblərini araşdıraq. Səbəbləri araşdırmaq üçün tarixçilər var. "İqtidar elədi, müxalifət belədi", - deyib araşdırma aparmaq həm də jurnalistlərin vəzifəsidir. Siyasətçilərin vəzifəsi isə olan vəziyyəti dəyişməkdir. Biz buna çalışmalıyıq. Ona görə də məni real qəbul edin. Mən vəziyyəti dəyişməyə borclu olan adamam, mən tarixçi deyiləm ki, analitik yazı yazıb məğlubiyyətin, uğursuzluğun səbəblərini araşdırım. Xəstə həkimə müraciət edir, deyir ki, boğazım ağrıyır. Həkim soruşsun ki, soyuq su içmisənmi, soyuqda ağzı açıqmı gəzdin? Bunun nə fərqi var ki? Həkimin vəzifəsi boğazı sağaltmaqdır.

***- Obrazlı desək, həmin o boğaz ağrısı elə iqtidar deyilmi?***

- Xəstəlik iqtidar deyil, xəstəlik seçkiyə gəlməməkdir, xəstəlik seçkidə saxtakarlıq etməkdir. İqtidar bu xəstəlikləri törədən amillərdən biridir. O törədən amillə mən məşğul olmayacam - bu ikinci mərhələdə baş verəcək. Əvvəlcə xəstəni ölümdən qurtarmaq lazımdır, sonra xəstəliyi müalicə eləmək. Yanlış yerdən başlamaq olmaz. Bizdə xəstə ölür, biz deyirik ki, birinci virusu məhv eləyək, virus ölsə, adam ayağa qalxar. Biz xəstəliyi törədən səbəbi axtarana qədər immunitet zəifləyir, bədən xəstəliyə təslim olur.

*(Söhbətə "Yeni Müsavat"ın İsveçrədə yaşayan müxbiri Elbəyi Həsənli qoşulur)*

**"Qarabağda savaşın olub-olmayacağı Qərb üçün olduqca vacibdir"**

***- İqbal bəy, Azərbaycanda seçki mexanizminin necə işlədiyini biz hamımız bilirik. O da bəllidir ki, iqtidar hər zaman Qərbdəki mərkəzlərlə qarşıdakı seçkilərlə bağlı danışıqlar aparır. Müxalifətə nə qədər yer verilməsi də müzakirə edilən mövzular sırasındadır. Qərbin də Azərbaycandakı seçkilərdə hansı mövqe tutacağı əsasən bəri başdan müəyyən olunur. Sizcə, bu dəfə də eyni mexanizm işləyəcək, yoxsa Qərbin parlament seçkisinə münasibəti digər seçki proseslərindən fərqlənəcək?***

**"Özünü ən demokratik, ən müxalif adlandıran, Qərb dəyərlərinə ən yaxın sayan kəsim mətbuatına senzura tətbiq edir"**

***Yəni xarici faktorun hansısa formada Azərbaycandakı seçki prosesinə təsiretmə imkanı olacaqmı?***

- Əgər siz hər şeyin bəri başdan həll olunduğunu düşünürsünüzsə, niyə indiyəqədərki seçki prosesləri haqqında yazı yazanda bildirmirdiniz ki, ay camaat, bu seçkidən heç nə gözləməyin, əvvəlcədən razılaşıblar, Müsavat Partiyası da razılaşıb? Prosesdən çıxandan sonra bunları demək rahat olur. Bütün partiyalar həm də ona görə mübarizə aparır ki, beynəlxalq qurumların hesabatları prosesin reallıqlarına uyğun olsun. Amma qabaqcadan "elə olacaq-belə olacaq" deməyi mən qəbul etmirəm. Kim deyə bilər ki, necə olacaq?

***- Qərb yenə deyəcək ki, seçki baş tutub, Azərbaycan irəliyə addım atıb.***

- Atılanda deyəcək, atılmayanda deməyəcək.

***- Elə olmur axı. Atılmayanda da deyir... Təbii, nəzəri cəhətdən.***

- Nəzəri cəhətdən çox fikir demək olar. Bəlli olan odur ki, Azərbaycan Qərb üçün olduqca maraqlı regiondur. Mən bir dəfə Türkiyədə siyasətçi dostlarımızla söhbət edirdim. Deyirdilər ki, Avropa Birliyi bir xristian klubudur, bizi ora qəbul etməyəcəklər. Mən demişdim ki, siz məsələyə yanlış yanaşırsız. Avropa Birliyi xristian klubu deyil. Türkiyədən sonra gələn və coğrafiyaca ona bitişik olan ölkələr Türkiyə qədər demokratikləşməsə, Türkiyəni Avropa Birliyinə almayacaqlar. Çünki bir gün yerindən durub, üzü Qərbə qaçan adamların ayağı o halda Türkiyədə yox, Finlandiyada, Norveçdə, Almaniyada dayanacaq. Avropa bunu istəmir. Bunun üçün bir tampon zona olmalıdır. Sizdən sonra gələn ölkələr gərək sizin səviyyənizdə ola ki, Türkiyəni Avropa Birliyinə qəbul edələr. Biz o cəhətdən çox maraqlı ölkəyik. Azərbaycan Avropa üçün Güney Qafqazın filtr zonasıdır. Ona görə bizim önəmimiz daha çoxdur. Ancaq biz düşüncə olaraq standartlara cavab veririkmi? Eləcə də siyasi partiyalarımız... Onlar Avropanın standartlarına cavab verirmi? Vermir. Bunu açıq deməliyik. Bu gün Azərbaycan iqtidarının içərisindən bircə nəfər qalxıb Elçibəyin məzarına bir dəstə gül qoysa, iqtidar açıq mövqe ifadə etməsə də, həmin məmurun bütün imkanlarını tükədəcək. Bunu açıq pisləməyəcəklər, üstündən sükutla keçəcəklər, ancaq həmin şəxsi mütləq cəzalandıracaqlar. Ya da müxalifətdən kimsə Heydər Əliyevin məzarına getsə, onu müxalifətçilikdən siləcəklər. Sizcə, bu şüurların arasında nə qədər fərq var?

***- Heç bir fərq yoxdur.***

- Zəlimxan Məmmədli kimi bir şəxsi Azərbaycan müxalifətindən dışlamağa çalışırlar. Sizcə, bu yanaşmaları Qərb görmürmü?

***- Görür, təbii.***

- İnsanlar burada partiyadaşları ilə bağlı elə kəskin ifadələr işlədirlər ki, insanın inanmağı gəlmir. Qərb bunu görmürmü? Görür və anlayır ki, bununla demokratiya qurmaq olmaz. Sabitlik Qərb üçün olduqca önəmlidir. Çünki sabit olmayan yerləri demokratikləşdirmək olduqca çətindir. Müxalifətin mesajlarında sabitliyin bir dənə elementi yoxdur. Müxalifət deyir ki, biz hər tərəfə qucaq açacağıq. Ancaq verilən mesajlar bunu demir. Deyir ki, filankəs filan olacaq, əmlakı belə olacaq, elə olacaq. Demokrat dediyimiz adam türməyə gedir, deyir ki, mən qonşu kameranı YAP-dan filankəslər üçün hazırlayıram, yadında saxlasın, bizim qonşu kameraya gələcək. Bu demokratik düşüncə deyil. Ən azı səni qanunsuz tutduqları kimi, sən də qanunsuz həbs edəcəyinin anonsunu verirsən.

***- Niyə qanunsuz? Onların əməllərində nə qədər cinayət tərkibi var...***

- Siz məhkəməsizmi adam tutacaqsız? Siz nə bilirsiniz adam cinayət edib? Bax, məsələnin mahiyyəti bundadır. Sizin ixtiyarınız yoxdur ona belə deməyə. Siz məsələyə dəyişmək istədiyiniz hakimiyyət kimi yanaşırsınız. Bunu şüurdan çıxarmaq lazmdır. Qərb bütün bunların hamısını çox dəqiq analiz edir. Baxır, düşünür ki, bu adamların dəyişməsi, sabitlik gətirməyəcək, əksinə, sabitlik pozulacaq.

***- İqbal bəy, bunlar sizin mülahizələrinizdir, yoxsa məlumatdır?***

- Mən, hər halda, təmaslardan nəticə çıxarmağı bilirəm. Ermənistan-Azərbaycan münaqişəsini götürək. Qarabağda savaşın olub-olmayacağı Qərb üçün olduqca vacib elementlərdən biridir. Azərbaycan müxalifətinin demək olar hamısı ya hakimiyyətin sülh planının arxasında gizlənir, ya da hakimiyyətdən bir qədər sərt mesaj verir. Yəni ortaya yenilikçi, daha pozitiv yanaşma, Güney Qafqaza barış gətirəcək mövqe qoya bilmir. Demokratiya sadəcə qanunlarda deyil, ən əsas, düşüncədədir, yaşam tərzindədir. İnsanlar demokratik düşünə bilmir. Özünü ən demokratik, ən müxalif adlandıran, Qərb dəyərlərinə ən yaxın sayan müxalif kəsim mətbuatına senzura tətbiq edir.

***- Sizcə, ölkəyə demokratiya gətirmək iqtidarın, yoxsa müxalifətin vəzifəsidir?***

- İqtidarın belə bir problemi yoxdur. İqtidarın yeri çox yaxşıdır. İqtidar yerindən və halından məmnundur. Yerimizdən məmnun olmayan bizik və biz Azərbaycana demokratiya gətirmək istəyirik. İqtidara sual verirsən, deyir, demokratiya belə olur. Biz ölkəyə demokratiya gətirmək istəyiriksə, özümüzdən başlamalıyıq, cəmiyyətə nümunələr, müsbət, pozitiv nəsnələr verməliyik. Siz istəyirsiniz ki, bunu iqtidar gətirsin? İqtidar deyir ki, demokratiya elə bu qədər olur. İstəmirik, daha artığı üçün mübarizə aparırıqsa, mübarizəmizi daha düzgün sistem üzərində qurmalıyıq. Özümüz qeyri-demokratik olub, demokratikliyi yalandan tərif etməməliyik.

***- Norveçin Azərbaycandakı keçmiş böyükelçisi Steynar Gil deyir ki, Azərbaycanda demokratiya qurulması üçün indiki iqtidar da dəyişməlidir, müxalifət də. Sizcə, düz deyir?***

- Düz deyir.

***- Nəyi düz deyir?***

*(ardı var)*

❑ Qələmə aldı Aygün MURADXANLI

**"Azərbaycan müxalifəti seçki təbliğatının hələ avqustun 31-də başlayacağını güman edir. Ona görə də uduzur. 23 günə nə edəcəksiz?"**





**"Mən vəziyyəti dəyişməyi borclu olan adamam, tarixçi deyiləm ki, analitik yazı yazıb məğlubiyyətin, uğursuzluğun səbəblərini araşdırım"**

# Mühacirlərin "ifşası"



Xalid KAZIMLI

**Avropada yaşayan mühacir həmvətənlərimizə dair qəzetimizdə gedən silsilə materiallar - müsahibələr bir neçə həqiqətləri üzə çıxarıb.**

Məlum olur ki, öz şəxsi səadətini Avropada axtaran və tapan adamların bir çoxu avropalıları aldadıb. Onlar heç də öz ölkələrində ciddi təqib-təzyiqə məruz qalmamışdılar və ölkədən getmələrinin səbəbi siyasi motivlərlə əlaqəli deyil, sırf güzəran, yaxşı gün görmək məqsədi daşıyır.

Əslində bu, normaldır. Hər insan istər ki, bircə dəfə gəldiyi dünyada 3-5 gün rahat, firavan, asudə yaşasın, maddi sıxıntı çəkməsin, övladlarının gələcəyindən nigaran olmasın.

Adam bütün bunları öz ölkəsində təmin edə bilmirsə, məcburdur ölkəsini dəyişsin. Ölkədəki durumu dəyişmək isə çox çətindir, ancaq təyyarəyə minib ölkədən çıxmaq, vətəni başqa bir ölkəyə dəyişmək qat-qat asandır.

Ona görə də bir çox fərasətli, riskə getməkdən çəkinməyən adamlar bu yolu tuturlar. Bu zaman onlar yalan danışmaq, özləri haqqında "təqib-təzyiq hekayətləri" uydurmaq zorunda qalırlar. Bəxtlərindən, bundan ötrü keçərli səbəblər var. Azərbaycan insan haqlarına riayət edilməməsi xüsusunda beynəlxalq səviyyədə ad çıxarıb, siyasi dustaqlar məsələsi gündəmdən çıxmır, seçkilər saxtalaşdırılır, insanlar təqib olunur və s.

Əgər bir ölkədə insanların seçib-seçilmək hüququ məhdudlaşdırılırsa, o, artıq həmin ölkəni tərk etmək üçün özündə mənəvi və siyasi haqq tapa bilər. Ancaq Avropaya sığınanların bir xeylisi bu ölkədə yaşayanda öz vətəndaş hüquqlarından istifadə etməyənlərdir. Onlar ömürlərində bir dəfə mitinqə, piketə, nümayişə çıxmayıblar, heç hansısa partiyanın üzvü də olmayıblar.

Bir neçə il öncə belə ailələrdən biri ilə həmsöhbət oldum. Ortaya çıxdı ki, 55-56 yaşlı kişinin arvadı, oğlu və qızı İsveçə gedib. Siyasi mühacir kimi. Guya bunları təqib edirmişlər. Soruşdum ki, onun ailə üzvləri hansı partiyanın üzvü olublar. Kişi əvvəlcə "heç birinin" dedi, sonra bir partiyanın adını çəkdi və dedi, sadəcə, həmin partiyaya daxil olmaq üçün ərizə veriblər, qəbul olunublar, üzvlük vəsiqəsini alandan bir neçə gün sonra təyyarəyə minib gediblər. Adam ailəlikcə üzv olduğu partiyanın nəinki məşhur simalarını, heç sədrini belə tanımırdı. Həmsöhbətimin dediyinə görə, ailəsi Avropa ölkəsinə çatandan sonra bir müddət onları sorğu-sual ediblər, qız fərasətli tərpənib, Suriyadan olan bir kürdlə ailə qurub, oğlan da bir yerli qadınla yalan-gerçək nikaha girib. "Müxalifətçi xanım" tək və köməksiz qalıb və onu bir müddətdən sonra ölkədən deportasiya ediblər. Çünki heç bir müsahibədən, istintaqdan üzüağ çıxmayıb, onun öz ölkəsində təqib olunduğuna inanmayıblar.

Təbii ki, bu, təcrübəsiz adamların aqibətidir. Hələ ölkədə olarkən hansı sənədləri düzəltməyin, orda müsahibələrdə nə danışmağın, necə danışmağın təhərini yaxşı bilənlər avropalılalara kələk gələ bilirlər.

Bir də var, gerçəkdən də siyasi motivlərlə təqib olunanlar, təzyiqlərə məruz qalanlar, keçmiş siyasi məhbuslar... Onların siyasi sığınacaq alması asan və halaldır. Zatən, bu adamlara siyasi sığınacaq verilməsi təşəbbüsü çox hallarda qarşı tərəfdən, qəbul edən dövlətdən gəlir.

İstər dolayı yollarla, istərsə də əsası olaraq ölkəni tərk edən, Avropaya sığınan insanların bu yolu seçməsinin başlıca səbəbkarı hakimiyyətdir. Əgər Avropanın yüksək rifahlı ölkələrində olan siyasi-iqtisadi mühitin, şəraitin yarısı bu ölkədə təmin edilmiş olsa, heç kəs kənarda, Rusiyada, Türkiyədə, Avropada xoş gün axtarmaz.

Gedənlərin arasında elələri də var ki, bu ölkədə yaxşı yaşayıblar, bahalı maşınları, şəxsi vilları, qazanclı işləri olub. Amma gediblər. Niyə? Çünki sabahkı gün üçün qarantiyaları olmayıb, gələcək görməyiblər, hər şeyin bir günün içində əllərindən çıxacağından əndişələniblər. İndi onlar bir az kasıb, amma daha asudə və rahat yaşayırlar.

Bu ölkədən gedənlərin əksəriyyəti yerli cəmiyyətə adaptasiya oluna bilmirlər, 99 faizi isə mütləq vətən üçün darıxır və qayıtmağa hazırdırlar. Bu, onu göstərir ki, adamlar məcbur olmasalar getməzdilər.

Bir şeyə də təəssüf ki, mühacir həmvətənlərimizə həsəd aparan, hətta açıq şəkildə paxıllıq edən, onların ünvanına təhqiramiz ifadə işlədənlər çoxdur. Hətta qəzetimizə şərh yazaraq mühacirləri "yaxşı ifşa etdiyimizə" görə təşəkkür edənlər də var.

**“Yeni Müsavat”ın bu dəfəki qonağı öz səsi ilə eşidənləri heyran edən, bütün dünyaya Azərbaycan muğam sənətini tanıdaraq, milli mədəniyyətimizin dünyaya yayılmasında mühüm rol oynayan xalq artisti Alim Qasımovdur. Muğam ustası ilə səsyazma studiyalarının birində, iş başında görüşdük:**


Məhəmməd Türkmən

# “Onların dediyi ilə oturub-dursaydım, indiki Alim Qasımov olmazdım”

## Alim Qasımov: “Məni təhqir edirdilər ki, niyə belə oxuyursan...”

*- Alim bəy, əhvalınız necədir? Uzun zaman idi ki, sizinlə əlaqə saxlamağa çalışırdıq. Lakin hər dəfə ya ölkə xaricində olurduz, ya da ki, konsertlərə hazırlaşırdız.*

- Sözün düzü, çox zaman özüm bəhanələr tapıb görüşlərdən qaçıram. Elə bilirəm ki, daha söhbət etmək, danışmaq məni çox yorub. Lakin sizi mənə çox təriflədilər, ona görə müsahibəyə razı oldum (gülür).

*- Dünyanın bir çox ölkələrində olmusuz. Hansısa ölkə və yaxud şəhər sizə möcüzəli təsir bağışlayıbmı?*

- Kiçik, sakit və təmiz küçələri olan şəhərləri çox sevirəm. Xüsusilə evlərin, küçələrin güllərlə bəzədilməsinə valeh oluram. Belə yerlərə daha çox Avropada rast gəlmişəm. Bu cür şəhərlərin yollarında tıxaclar olmur, insanlar sakit tərzdə danışırlar...

*- Bardaş qurub oxumaqla səhnə mədəniyyətimizə yenilik gətirdiz. Bu ideya necə yarandı?*

- Bir dəfə Belçikada konsertimiz var idi. Konsertdən əvvəl məşq edərkən gördük ki, səhnə hələ tam qurulmayıb, stullar belə yoxdur. Buna çox əsəbiləşdim. Lakin əhəmiyyət verməyərək yerdəcə bardaş qurub məşqimizə başladıq. İfa edəndə gördüm ki, belə daha rahatdır. İfaçılarımdan soruşdum, belə çalıb-oxuya bilərikmi? Hamının xoşuna gəlmişdi, dedilər, belə daha gözəldi. Baxdım ki, bu cür düzülmək səhnəyə də qədimilik çaları verir. Hətta sonradan stulları səhnəyə gətirəndə onları geri qaytardım və konserti bu cür təşkil etdik. O vaxtdan səhnədə bardaş qurub ifalarımızı yerinə yetirirk. Bəzən olur ki, hansısa muğamın zil yerində musiqiyə qapılıb kəskin hərəkətlər edirik. Belə anlarda stulda əyləşmək narahatlıq yaradır. Yerdə bardaş qurmaq bu baxımdan çox rahatdır.

Uşaqlıqda biz yerdə bardaş qurub süfrə açardıq. O zaman kasıbçılıq idi, stul nə gəzirdi. İndi çıxmışıq stula (gülür).

### “Allaha yalvarışlar edir, əl hərəkəti ilə lazım olan notları tutmağa çalışırıq”

*- İfa zamanı səhnəni unudur, öz dünyanızda, aləminizdə olursuz, sanki göylərdə uçursuz...*

- Məsələn, maşını işə salanda birinci gərəkdir ki, açarı burasan, bir güzgüyə baxasan, qapını örtəsən və s. Mən də ifamı işə salmaq üçün özümdən asılı olmayaraq daxilimdə olan bacarığımı ortaya çıxartmağa çalışıram. Bu zaman səhnədə nə hərəkət etdiyimdən, necə göründüyümdən xəbərim olmur. Ola bilsin ki, kənardan hətta yersiz görünsün. Lakin hər bir hərəkətin öz məğzi, dəyəri var. Allaha sanki yalvarışlar edir, əl hərəkəti ilə lazım olan notları tutmağa çalışırıq. Bütün bunların hamısı vəhdət təşkil etməlidir. Yoxsa musiqinin “halı” yaranmaz.

### “Avropa Oyunlarına dəvət almamışam”

*- Azərbaycanda keçirilən “Eurovision-2012" yarışmasında öz kompozisiyanızla çıxış etdiniz. Çox maraqlı layihə alındı. Artıq ilk Avropa Oyunlarının keçirilmə tarixinə az qalır. Bununla da bağlı dəvət almısınızmı?*

- Hələ ki heç bir dəvət gəlməyib. Əgər musiqi baxımından mənim ifam gərək olarsa, yəqin ki, dəvət edərlər. Lakin dediyim kimi, bu barədə hələ ki mənə heç bir məlumat verilməyib.

*- İfa zamanı sərbəst improvizasiyalardan kifayət qədər istifadə edirsiz. Buna görə muğam ustadlarının tənqidi ilə üz-üzə gəlmisinizmi?*

- Nəinki tənqid, hətta təhqirlə də rastlaşmışam. Lakin bunların heç birinə fikir vermədim. Çünki ifamdakı improvizasiyaları ağılla deyil, ürəyimlə etmişəm. Bu cür mənə xoş gəldiyindən tənqid və təhqirlərə baxmayaraq ifamdakı yenilikləri tərgitmədim, əksinə, daha da mükəmməlləşdirdim. Əgər hər kəsin dediyi ilə oturub-dursaydım, indiki Alim Qasımov olmazdım. Bu sənətimdən ilk növbədə özüm zövq almağa çalışıram.

Əlbəttə ki, mənə qarşı tənqidlər olanda özüm öz ifalarımı təhlil etmişəm. Lakin görəndə ki, heç bir səhv yoxdur, öz yoluma davam etmişəm.

Ümumiyyətlə, zamandan da çox şey asılıdır. Məsələn, bir əsr bundan əvvəlki ifa ilə bugünkü ifaları müqayisə edəndə görürük ki, arada xeyli fərq var. Gəlin baxaq, Keçəçioğlu Məhəmmədin ifası ilə indiki sənətkarların ifası eynidirmi? Əlbəttə ki, yox. Buna görə də sənətdəki yeniliklərə açıq olmaq lazımdır.

*- Adətən incəsənət adamları pərəstiş etdiyi sənətkarların yaradıcılığından nələrisə nümunə götürür. Bəs Alim Qasımov kimlərdən yararlanır?*

- Bu barədə çox sənətçinin adını çəkə bilərəm. Məsələn, mənim ustadım Ağaxan Abdulayev olub. Daha sonra Nəriman Əliyevdən, Vahid Abdullayevdən dərslər almışam. Asəf Zeynallı adına musiqi ocağında dərs alanda təkcə ustadların deyil, digər muğam sənətkarlarının da dərslərinə girir, muğam haqqında daha yeni bir məlumat əldə etməyə çalışırdım. Məsələn, Seyid Şuşinskinin, Zülfü müəllimin, Mütəllim Mütəllimovun dərslərini izləyirdim. Hətta adını indi çəkmədiyim sənətkarlar var ki, mən onların yaradıcılığından xeyli bəhrələnmişəm. Bu, məndən asılı deyil, qulaq o ifaları eşidir, beyin onu qəbul edərək yaddaşa salır və hansısa konsert və ya ifada özünü göstərir. Dəfələrlə olub ki, öz ifamdakı yeniliklərə məəttəl qalmışam ki, bu hardan ağlıma gəldi. Təhlil edəndə görürəm ki, bu ifanı hansısa sənətçidən eşitmişəm. İş təkcə bununla bitmir, bir də görürsən, dünya musiqisindən, şərq dünyasından hansısa nəfəs ifaya gəlib çıxır. İncəsənət məhz bu baxımdan incə sənətdir, onun şaxələri çoxdur.

### “Muğam ifaçılığından 3 qiymət almışdım”

*- Dünyanı heyrətə salan Alim Qasımov vaxt var idi ki, imtahanlardan kəsilmişdi, onu təhsil ocağına qəbul etmirdilər...*

- Baxmayaraq ki, sovet dövrü idi, lakin onda da musiqi ilə bağlı təhsil ocaqlarında pul mühüm rol oynayırdı. Mənim səsim var idi, lakin orta məktəb təhsilimin səviyyəsi demək olar ki, sıfır idi. Elmi cəhətdən çox geridə qalırdım. Lakin ifa istedadıma görə mənə güzəştə getmək olardı. Əksinə, mənə ixtisasdan 3 yazıldı. Heç olmasa 4 də yazmadılar.

### “Ora daxil olmaq üçün məndən 2500 manat istədilər...”

Sonra gəldim Asəf Zeynallı adına texnikuma. Orda məndən 2500 manat istədilər. Məndə bu qədər pul hardan idi... Məcbur qalıb əsgərlik hesabıma sürücülük məktəbinə daxil oldum.

Lakin sonradan qohumlarımın tanışlığı ilə məni məktəbə qəbul etdilər. Və ixtisasımdan “5” aldım. Təbii ki, o "5"i mən öz sənətimlə almışdım. Yadımdadır, ədəbiyyat imtahanında Səməd Vurğundan nəsə düşmüşdü, onu da bilmədim. Lakin tapşırıldığımdan bu dəfə mənə güzəştə getdilər (gülür).

*- İndinin özündə də bəzən istedadlı gəncləri imtahanlardan uzaqlaşdırmaq üçün qəsdən ixtisas qiyməti aşağı yazılır. Digər fənlərə baxan komissiya üzvləri də bunu bəhanə edib aşağı qiymət verməyə çalışır.*

- Deməzdim belədir, indi vəziyyət bir qədər fərqlidir. Milli Konservatoriyada istedadlı, potensiallı gənclərə kifayət qədər güzəştlər edilir.

*- Sizin ifanızda muğam və aşıq sənətinin sintezi olan “Şirvan şikəstəsi” çox fərqlidir...*

- Şikəstələr həmişə yanıqlı ifa edilib. “Şirvan şikəstəsi” də həmçinin. Lakin şikəstələrdə adətən qoşma, gəraylı olur, qəzəl oxunmur. Bilmirəm hardansa ağlıma gəldi ki, bura bir qəzəl daxil edim. Deyim ki, çox da gözəl alındı. İnşallah, Allah ömür verər, digər aşıq havalarına da nəzər yetirərəm.

### “İndi neyləyək ki, o rəqqasənin göbəyi çox olub”

*- Tarixin bütün dövrlərində yeniliklər tənqid olunub, onlara qarşı gəlinib. Məsələn, bu yaxınlarda aşıq Ədalət Nəsibov aşıq havasında göbək rəqsini ciddi tənqid etdi.*

- Aşıq Ədalət böyük sənətkardır, saz sənətində onun rolu misilsizdir. Kimsə bu cür yenilikləri uda bilir, kimisi isə dözməyib içəridən coşaraq üsyan edir. Lakin “bu olar, bu olmaz” fikri yanlışdır. Hər kəsin öz düşüncəsi, dünyagörüşü, baxışı var. Məsələni bu dərəcədə şişirdərək dava səviyyəsinə gətirmək, səs-küy yaratmaq doğru deyil. Aşıq Ədalət də sazın qeyrətini çəkərək, onu müqəddəsləşdirdiyindən bu cür halları qəbul edə bilmir. Saz havası ilə göbək rəqsi - niyə də olmasın. Göbək rəqsində insanın bütün əzası tərpənir, indi neyləyək ki, o rəqqasənin göbəyi çox olub (gülür). Yəni belə şeyləri çox qabardıb şouya çevirmək olmaz.

*- Amma gəlin etiraf edək ki, yeni gələn gənc nəsil bu cür yenilikləri görüb sənəti elə bu cür də qəbul edir.*

- Tamamilə razıyam. Bu gün bayağı musiqilər baş alıb gedir. Bu cür musiqilərin yolu, görkəmi çox az olmasına baxmayaraq biz onları efirlərə, radiolara ötürməkdən çəkinmirik. Bu, yolverilməzdir. Təəssüflər olsun ki, hazırda efirlərimizdə səslənən musiqilərin 70-80 faizi bayağı musiqilərdir. Onsuz da insanlar restoranda, məclislərdə olanda o cür bayağı musiqiləri eşidir. Bunu daha efirə də çıxartmağın nə mənası, anlamı var? Axı bütün tamaşaçıların zövqü eyni deyil. Cəmiyyətimizdə əsl, keyfiyyətli musiqi eşitmək istəyən xeyli insanlarımız var. Lakin indi onlar da bu cür musiqiləri dinləməyə məcburdurlar. Efirlərdə toyxana açıblar. Bu, biabırçılıqdır.

*- Sanki palatka toylarıdır...*

- Ondan da pisdir. Palatka toyları onların yanında ən məşhur konsertlərə bənzəyir. Amerikanın diskotekaları bizim efirlərdə gedən musiqili verilişlərdən daha tərbiyəlidir.

*- Belə çıxır ki, mətbuatı izləmirsiz?*

- Qətiyyən, xeyr.

*- Dünyada baş verənləri də? Məsələn, terroçu İŞİD təşkilatının törətdiyi cinayətlər, ölkələr arasında gedən müharibələr...*

- Belə şeyləri görəndə deyirəm, ilahi, sən özün haqq-ədaləti bərqərar et, ölkəmizi fərahimdə saxla, bizi mərdimazardan uzaq et, dinli-imanlı olaq. Lakin qeyd etdiyiniz o cür hadisələri izləmirəm. Çünki bu tip olayları izlədikdə insan mənfi aura ilə yüklənir, bu da sonradan insana pis təsir edir, hərəkətlərində aqressiya yaranır. Çalışıram ki, özümü belə şeylərdən uzaq tutum.

## “İŞİD-ın törətdiklərinə ona görə baxmıram ki...”

*- Dünya sənətkarları ilə birləşib bu cür terrorlara qarşı aksiya keçirmək fikriniz olubmu?*

- Bu haqda heç vaxt fikirləşməmişəm. Lakin belə bir ideya olarsa məmnuniyyətlə iştirak edərdim.

### “Nə edirəmsə özüm üçün deyil, səsim üçün edirəm”

*- Fiziki baxımdan xeyli çevik və şux görünürsüz, bilmək istərdik, idmanla məşğul olursuz?*

- Şükürlər olsun ki, mənim səsim var. Buna görə özümə diqqət edirəm. Bu da öz səsimə, sənətimə olan hörmətimdən irəli gəlir. Əgər bu gün səsim olmasaydı, indi Allah bilir hardaydım. Hər gün səhər tezdən dururam, müəyyən hərəkətlər edirəm. Nə edirəmsə özüm üçün deyil, səsim üçün edir, çalışıram.

*- Gənc muğam ifaçılarından razısızmı?*

- Öz zövqümlə deyə bilmərəm ki, kim yaxşıdır, kim pis. Lakin gənc ifaçılar arasında eləleri var ki, onlar çox istedadlıdır. Əgər indi yaxşı tamaşaçı da yetişərsə onlar daha da irəli gedərlər. Yəni tamaşaçıdan da çox şey asılıdır. Dinləyici və yaxud tamaşaçı sənətçilərdən öz tələblərini etsələr ki, biz səviyyəli musiqi istəyirik, vəziyyət dəyişər. Belə olan halda ifaçılar da öz sənətlərinə daha ciddi yanaşar, ortalığa daha yaxşı nəticələr gələr.

Bir söz də deyim, gəncləri hər şeyə görə qınamaqdansa, onlara dəstək olmalıyıq.



## “Efirdə toyxana açıblar - biabırçılıqdır”

❑ **Xalidə GƏRAY**

**Foto: Məhəmməd TÜRKMƏN**

# "Birinci Arif Alışanovu işdən çıxarmaq lazım idi..."

## AzTV-dəki müavin dəyişikliyinin pərdəarxası məqamları: "Yeni gələn müavinlərin televiziya ilə bağlı heç bir xidmətləri yoxdur, onlar televiziyaya heç nə verə bilməyəcəklər"

**Xəbər verdiyimiz kimi, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti sədrinin radio üzrə müavini Cavanşir Cahangirov, eləcə də sədrin televiziya üzrə müavini Faiq Hüsiyev vəzifələrindən kənarlaşdırılıblar.**

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətindən verilən məlumata görə, "Mədəniyyət" və "İdman Azərbaycan" televiziyalarının baş direktoru Elsevər Dünyamalıyev sədrin radio məsələləri üzrə müavini, Rəşad Nəsirov isə televiziya məsələləri üzrə müavini təyin olunub.

AzTV-yə sədr müavini vəzifəsinə yeni təyin olunmuş şəxslər ictimaiyyətdə, xüsusən də media cameəsində birmənalı qarşılanmayıb. Qeyd edək ki, hər iki sabiq müavinin sədrlə aralarında problem olması və onlar üçün işdən çıxarılmalarının gözlənilən olması da prosesin qərəzli mahiyyətinə dəlalət edir.

**Yeni təyinatlarla bağlı "Yeni Müsavat"a danışan AzTV-də gedən daxili proseslərdən məlumatlı olan, lakin adının çəkilməsini istəməyən mənbə iddia edir ki, bu təyinat irəliyə doğru heç bir nəticə verməyəcək:** "Artıq AzTV-yə bir kommersiya obyekti kimi baxılır. Diqqət yetirsək, vəzifədən çıxarılanların hər ikisi jurnalistdir. Düzdür, Faiq Hüsiyevin bir az dəllallığı var idi. Ancaq Cavanşir Cahangirov ömrünü televiziyaya bağlamış adamdır və ağır xərçəng xəstəsidir. Ona qarşı bu addımın atılması düzgün deyil. Bu vəziyyətdə bir qədər həssas olmaq lazım idi. Bu insan həyatını televiziyaya bağlayan şəxslərdən biridir. Müavin vəzifəsinə yeni təyin olunan şəxslərin isə heç birinin televiziya təcrübəsi yoxdur. AzTV-də, görünür, özfəaliyyətin yeni dalğası başlayır. Televiziyanın səviyyəsi getdikcə ölür. Yeni gələn müavinlərin televiziya ilə bağlı heç bir xidmətləri yoxdur, onlar televiziyaya heç nə verə bilməyəcəklər. Sadəcə, bu insanlar daha üzüyola, tapşırıqları daha rahat yerinə yetirən kölə kimi adamlardır".

**Mənbə bildirib ki, Elsevər Dünyamalıyevin AzTV-yə sədr müavini təyin olunması əvvəla, hüquqi baxımdan doğru deyil:** "Bir adam həm "Mədəniyyət" kanalına rəhbərlik edir, həm də "İdman Azərbaycan" kanalına. Bunlar prinsipcə ayrı-ayrı qurumlardır və ayrı-ayrı büdcəsi var. Qanun buna yol vermir. İndi də Elsevər Dünyamalıyevi radio məsələləri üzrə müavin təyin ediblər. Bu insanın bir səs yazdırdığını, bir mətn redaktə elədiyini bu günə qədər görən olmayıb. Bu qərar tam subyektiv verilib və heç bir əsası yoxdur. Bu qərar televiziyanı daha da geri salmağa yönəlib, irəliyə doğru heç bir nəticə verməyəcək. Çıxarmağa qalsa, birinci Arif Alışanovu çıxarmaq lazımdır. Çünki televiziyanı duymur, televiziyaya heç bir yaradıcı yenilik gətirməyib, əvvəlki ənənələri də məhv edib".



Bəs görəsən, A.Alışanovun iki müavinin işdən çıxarılması onun öz mövqeyini zəiflədirmi? Yoxsa bu proses birbaşa onun təşəbbüsü ilədir?

**Məlumatlı mənbənin sözlərinə görə, A.Alışanov həmin şəxslərin vəzifədən çıxarılması üçün təqdimatı özü edib:** "Mənə elə gəlir ki, onun mövqeləri bir qədər də möhkəmlənib. Çünki vəzifəyə qoyduğu şəxslər haqqında da onda soruşan yoxdur ki, bu şəxslər kimdir, televiziyaya gəlmək üçün hansı yolu keçiblər? A. Alışanovun vəzifədən çıxarılma ehtimalı yoxdur, əksinə, onun mövqeyi daha da möhkəmlənir. Arif Alışanov korrupsiya məsələlərində çox peşəkardır və ona görə də onun mövqeyi möhkəmdir. Vəzifədən çıxarılanlarla əvvəlcədən aralarında narazılıq olub və bu qərar da qərəzli olaraq verilib. Çünki vəzifədən çıxan hər iki müavin deyir ki, bunu gözləyirdilər. Bu, şəxsi hisslərlə verilən qərardır və televiziya məsələlərinə heç bir aidiyyəti yoxdur".

**AzTV sədrinin radio üzrə müavini Cavanşir Cahangirov isə aznews.az -a açıqlamasında bildirib ki, bir müddət öncə sədrlə münasibətlərində soyuqluq yaranıb və vəzifədən çıxarılacağını gözləyirmiş:** "Artıq bir aya yaxın idi ki, sədrlə münasibətlərimiz korlanmışdı. Buna görə də bilirdik ki, bizi vəzifəmizdən azad edəcək". Onun sözlərinə görə, bu qərarı gözləsə də sərəncam verilməsindən xəbəri olmayıb. Bu haqda iş yoldaşlarından eşitdiyini bildirib.

**AzTV sədrinin televiziya üzrə müavini vəzifəsindən çıxarılan jurnalist Faiq Hüsiyev isə qeyd edib ki, işdən çıxarıldığını dostlarından öyrənib. Faiq Hüsiyev da etiraf edib ki, işdən çıxarılmağı haqda xəbər gözlənilən idi:** "Onsuz da gözlənilməyən heç nə olmur. Düşünürəm ki, çıxarılmağım üçün təəssüflənməyə dəyməz, çünki həyatımda düzəlməyən şey həmişə mənə xeyir gətirib".

**F. Hüsiyev onun yerinə təyin edilən Rəşad Nəsirov haqda xoş sözlər deyib:** "O, bizim kadrdır, çox istedadlıdır. Onun irəli çəkilməsində mənim böyük rolum olub".

Yeni sədr müavinlərinin kimliyinə gəlincə, Elsevər Dünyamalıyev 1997-ci ildən Azərbaycan Televiziyası Qapalı Səhmdar Cəmiyyətində çalışır. AzTV-nin proqram direksiyasının redaktoru, baş redaktoru olub. 2009-cu ildən "İdman-Azərbaycan" telekanalına direktor təyin olunduğu vaxtadək AzTV-nin proqram direksiyasında şöbə müdiri işləyib.

E. Dünyamalıyev bu il aprelin 7-də AzTV, "Mədəniyyət" və "İdman Azərbaycan" kanallarında baş direktor vəzifəsinə gətirilmişdi.

Yeni sədr müavini Rəşad Nəsirov 1997-ci ildən 2001-ci ilə kimi ANS TV-də, 2002-2005-ci illərdə "Lider" TV-də aparıcı-redaktor vəzifələrində çalışıb. 2001-2002-ci illərdə Dövlət Sərhəd Xidmətinin Xudat sərhəd dəstəsində həqiqi hərbi xidmət keçib.

2005-ci ildə İctimai Televiziya və Radio Yayımları Şirkətinin "İnformasiya" departamentində işə düzəlib. 2010-cu ildən "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-də baş redaktor vəzifəsində çalışırdı.

**"Yeni Müsavat"a açıqlamasında media hüququ üzrə ekspert Ələsgər Məmmədli bir şəxsin bir neçə televiziya qurumuna rəhbərlik etməsinin hüquqi əsaslarından danışdı:** "AzTV-nin idarə olunması ilə bağlı vaxtilə əsasnamə var idi. Sonradan bu əsasnamə qüvvədən düşdü və faktiki olaraq AzTV-nin bu gün hansı hüquqi sənədlə idarə olunduğu mübahisəli məsələdir. Bu qurum Qapalı Səhmdar Cəmiyyət olduğuna görə ehtimal etmək olar ki, QSC-lərin idarə olunması strukturu onlara da aiddir. Ancaq bu bir media qurumu olduğu və dövlət büdcəsindən maliyyələşdiyi üçün buradakı struktur fərqli olmalıdır və "Teleradio yayımı haqqında" Qanunun tələbləri təmin olunmalıdır. AzTV QSC tipli cəmiyyət olduğu üçün istər "İdman Azərbaycan", istərsə də "Mədəniyyət" kanalları bir yayımçı sayılır. Qanunvericiliyə görə, bir yayımçı iki televiziya və üç radioya sahib ola bilər. İndiki halda AzTV qanunun tələbini pozur. Yəni AzTV-nin 3 kanala sahib olması "Teleradio yayımı haqqında" Qanuna uyğun deyil.

İkincisi, hüquqi idarəetmə baxımından yayımçı bir olsa da, hər iki kanal ayrı-ayrı struktur olduğu üçün idarəetmə baxımından bir şəxsin himayəsində olması ciddi idarəetmə problemi yarada bilər. Ancaq bunlar bazarda rəqabət aparan qurum deyil. İndiki halda yayımçı bir olduğu üçün və digər kanallar da bu quruma tabe olduğu üçün bir neçə vəzifənin bir şəxsə tapşırılması qanunvericilik baxımından pozuntu deyil".

❑ **Nərgiz LİFTİYEVA**

# Neft bahalaşır

## Natiq Cəfərli: "Qiymətlərin yenidən aşağı düşməsi üçün fundamental səbəblər yerində qalır"




**Dünya bazarlarında "qara qızılın" qiymətinin artması davam etməkdədir. Mayın 6-da London birjasında Brent markalı neftin iyun ayı üçün qiymətləri 1,08 faiz bahalaşaraq hər barelinə 68,25 dollar təşkil edib. Qərbi Texas markalı (WTI) neftin qiyməti isə 1 barel üçün 61,4 dollar təşkil edib.**

"Caspian Barrel" Sinqapurdakı CMC Markets konsalting şirkətinin analitiki Nikolas Teoya istinadən xəbər verir ki, neftin bir neçə gündür ki, durmadan bahalaşmasına səbəb Yaxın Şərqdəki (Yəmən, İraq) hadisələr idisə, son iki günün artımında əsas rolu Liviya oynayır. Belə ki, Liviyanın Zueitina terminalı artıq dünəndən bağlanıb. Bu yeganə terminal idi ki, Liviya neftinin ixracını oradakı müxtəlif qrupların qarşıdurması zamanı mütəmadi həyata keçirirdi. İndi isə bu terminal da fəaliyyətini təhlükəsizlik məsələləri ilə bağlı dayandırmalı olub və nəticədə treyderlər neftin stabil bazara çıxarılma təhlükəsi ilə üzləşiblər. Buna görə də birjalar neftin qiymətinə artımla reaksiya verirlər.

Beləliklə, Brent markalı xam neftin qiyməti bu il üçün ən yüksək həddə çatıb. Brent markalı neftin bir bareli il başlayandan bəri 68 dolları ötüb. Yalnız keçən ilin dekabr ayında Brent-in bareli daha baha olub. Həmin vaxt onun qiyməti 67,24 dollar olub. BBC radiosu xəbər verir ki, neftin qiymətində, Çin iqtisadiyyatının güclənməsi fonunda nəzərəçarpacaq artım müşahidə olunur.

**Ekspert Natiq Cəfərli isə qeyd edir ki, dünya bazarında neftin bahalaşmasının iqtisadi və fundamental əsasları yoxdur:** "Neftin ucuzlaşmasına təsir göstərən faktorlar yerində qalıb, bazarda fundamental dəyişikliklər olmayıb. Mövcud vəziyyət qiymətlərin aşağı çəkilməsinə xidmət etməli idi. Səudiyyə Ərəbistanı, Rusiya və ABŞ slans neftinin hasilatını artırıblar. Son açıqlanan rəqəmlər göstərdi ki, OPEK-ə daxil olan və olmayan ölkələrdə də hasilat kvotaları keçib. İraqda son 1 ilin ən yüksək həddində neft hasil edilib. Həmçinin dünyada iqtisadi inkişaf tempi xeyli dərəcədə zəifləyib. Dünyanın ikinci neft istehlakçısı olan Çində istehsal indeksi son illərin ən aşağı səviyyəsinə- 50 punktdan da aşağı düşüb. Bütün bunlar neftin qiymətlərini aşağı çəkməli idi. İranın bazara daxil olacağı ehtimalı da yerində qalıb".

**Ekspertin sözlərinə görə, bahalaşma Yaxın Şərqdə- xüsusilə Yəmən ətrafında baş verən gərginliklə bağlıdır:** "Səudiyyə Ərəbistanının başçılığı ilə koalisiya güclərinin Yəmənə müdaxiləsi neft bazarında ciddi narahatlıq yaratdı. Yəməndə də neft hasilatı aşağıdır, gündəlik hasilat 100 min bareldən də azdır. Lakin Yəmən strateji cəhətdən əlverişli mövqedə qərar tutub. Tankerlər əsasən Hörmüz boğazı və Süveyş kanalı vasitəsilə Yəmənin daxili sularından keçməklə dünya bazarına çıxır. Dünyada tankerlərlə neft daşımalarının təxminən 30%-i məhz bu bölgədən keçir. Bu da investorlar və neft istehsalı ilə məşğul olan treyderlərdə ajiotajın yaranmasına səbəb olur. Hamıda belə bir qorxu yarandı ki, münaqişə böyüyərsə və Yəmənə müdaxilələr uzunmüddətli olarsa, boğazlardan keçən tankerlərə təhlükə ola bilər. Bu isə dünya bazarına neftin çıxarılmasını əngəlləyə bilər. Digər təhlükə İran və Səudiyyə Ərəbistanının Yəmən məsələsinə görə qarşıdurmaya gedəcəkləri ehtimalı ilə bağlı idi. Təbii ki, iki böyük neft ölkəsinin münaqişəsi qiymətlərə ciddi təsir göstərən amillərdən biri ola bilərdi. Bütün bu spekulyasiyalar və real vəziyyət neftin qiymətinin son 1 ayda addım-addım artmasına səbəb oldu".

**N.Cəfərli qeyd edib ki, çox güman ki, Yəmən böhranında yumşalma baş verəcəksə, yenidən bazarın öz köhnə vəziyyətinə, 50-55 dollara qayıtma ehtimalı yüksələcək:** "Çünki qiymətlərin yenidən aşağı düşməsi üçün fundamental səbəblər yerində qalır. Ona görə də əsas diqqət Yəmən məsələsinin tezliklə həll olunmasına yönəlib".

❑ **RÖYA**

**Bakıda qətlə yetirilərək yandırılan İmişli Rayon Polis Şöbəsinin əməkdaşı 1988-ci il təvəllüdlü Muxtar Nəcəf oğlu Kazımovun yaxınları "Yeni Müsavat"a danışıb. Onlar deyir ki, M.Kazımovu iş yoldaşı Ravil Nuruş oğlu İbayev öldürüb. Həmçinin iddia edirlər ki, o, cinayəti tək törətməyib. Mərhum polis əməkdaşının anası Tahirə Kazımova R.İbayevin cinayəti törətmək üçün əvvəlcədən hazırlaşdığını deyir:**

# Bakıda öldürülən polisin ailə üzvləri danışdı - yeni təfərrüat

## Öz iş yoldaşı tərəfindən qətlə yetirildiyi deyilən İmişli Polis Şöbəsinin əməkdaşı Muxtar Kazımovun anası cinayətin digər iştirakçılarının istintaqdan kənarda qaldığını ehtimal edir; "Ravil İbayevə kömək edənlər olub"

"Özü də etiraf edir ki, əvvəldən bıçaq, sellofan və idman çantası alıb. Bunları ona görə alıb ki, oğlumu öldürsün və sonra sellofana büküb çantaya qoyub aparıb gizlətsin. Yalandan deyir ki, guya oğlumu tamah məqsədi ilə öldürüb. Buna inanmıram. Ona görə ki, Ravilin atası Nuruşun milyonları var. Onun bir neçə daş karxanası, çoxlu yük daşıyan "KamAZ"ları və başqa obyektləri var. Oğlunu Polis Akademiyasına qoydurub. Bakıda 4-5 yerdə evləri, oğlunun, özünün, qızlarının hər birinin maşınları var. Belə bir adamın oğlu hansısa 15 min manata görə belə amansız qətl törətməz. Bu işin altında başqa məqamlar var. O, cinayəti kimlərləsə məsləhətləşərək törədib".

**Yada salaq ki, Muxtar Kazımovla Ravil İbayev hər ikisi İmişli Rayon Polis Şöbəsinin əməkdaşları olub. Onlar Bakıya qiyabi təhsil aldıqları Polis Akademiyasında keçirilən imtahan sessiyasına gəliblər. Sessiya günlərində M.Kazımov Xətai rayonundakı özünə məxsus mənzildə, R.İbayev isə həmin rayonun ərazisində kirayələdiyi mənzildə yaşayıb.**

"Qardaşım Xudu Məmmədov küçəsi ev 14-də ailəsi ilə yaşayırdı. 2011-ci il aprelin 17-də ailə qurmuşdu, 2015-ci il aprelin 17-də öldürüldü. 1 övladı var, biri də olacaq. Biz onun uşaqlarına nə deyəcəyik?" - deyən M.Kazımovun bacısı Əfsanə Məmmədli söhbətə qoşulur. Onun sözlərinə görə, R.İbayev bildiklərini gizlədir, istintaqı azdırmağa çalışır: "Ravil "Nargilə" kafesinin yaxınlığındakı yaşayış binasında qalırdı. Bir gün qardaşımın maşını ilə, bir gün də Ravilin maşını ilə akademiyaya gedirdilər. Ravil də qardaşım kimi polisdə sürücü idi. Hər ikisi 1-ci kurs tələbəsi idi. Aprelin 16-da o, qardaşıma 4 dəfə zəng edib soruşub ki, səhər akademiyaya gedəcəkmi. Bunu kimlərinsə diqtəsi ilə dəqiqləşdirib. O, cinayəti əvvəlcədən kimlərləsə planlaşdırıb. Hadisə olan gün səhər qardaşımı gəlib evin yanından götürüb və Polis Akademiyasına imtahana gediblər. Geri qayıdanda əmim oğlu Pəsərək ona zəng edib. Qardaşım əvvəlcə Pəsərəkə deyib ki, Ravilləyəm, evə tərəf gəlirik. Təxminən 20 dəqiqəyə yaxın danışıblar. Qardaşım Pəsərəkə söhbət əsnasında deyib ki, Ravil maşını bərk sürür, harasa gedirik. Evin yanında saxlamadı. Ravil tutulandan sonra deyib ki, qardaşımdan yolda soruşub ki, maşın almaq üçün pulu götürmüsən. Qardaşımın təsdiq cavabından sonra onu aldadıb ki, gedək satışda olan maşınlara baxaq.

Necə olubsa qardaşımı kirayələdiyi evə qalxmağa razı salıb. Ravil müstəntiqə deyib ki, Muxtar içəri keçəndən sonra nədənsə şübhələndi, geri qayıdıb qaçmaq istədi. İfadəsində bildirib ki, onu boynundan, ürəyindən və qabırğasından bıçaqla vurub. Yerə yıxılandan sonra Muxtar Ravilə deyib ki, pulları götür, məni xəstəxanaya çatdır. Ravil pulları götürüb, amma qardaşımı xəstəxanaya çatdırmayıb. Paltarlarındakı qanı yuyub, ütüləyib və qardaşımın meyitini əvvəlcədən aldığı idman çantasına yerləşdirmək istəyib. Görüb ki, alınmır. Evdən çıxıb, yaxınlıqdakı "moyka"ya gedib. Orda işləyən bir yeniyetmə oğlana deyib ki, ona bir iri sandıq tapsın. Sandığa evdəki maşın ehtiyat hissələrini yığacaq. Həmin maşın yuyan da onunla qaçqınların yaşadığı yerə gedib, onlardan 5 manata sandıq tapıb. Sandığı götürüb və deyib pulunu verəcək. Maşın yuyanın köməkliyi ilə sandığı evinin qapısına qədər gətirib. Ona deyib ki, evdə arvad-uşaq var, get, sandığa maşın "zapçast"larını yığıb səni çağıracağam. Qardaşımı sandığa qoyub, gedib yük daşıyan dostundan "Ford" markalı maşını alıb. Ona deyib ki, evdən bəzi yükləri daşıyacaq. O da heç bir sənəd-sübutsuz maşını Ravilə verib. Ravil maşın yuyanın köməyi ilə qardaşımın meyiti olan sandığı 8-ci mərtəbədən endirib və Hövsana aparıb orada üstünə benzin tökərək yandırıb".



**Ə.Məmmədlinin sözlərinə görə, R.İbayevin istintaqdan gizlətdiyi məqamların olmasından şübhələnirlər:** "Qardaşım yoxa çıxandan sonra biz onun axtarışlarına başladıq. Muxtar çox intizamlı idi. Ailəsini çox istəyirdi. İmişlidə olanda hər imkan düşəndə evə gəlib dəyirdi. Hara getsə idi, ailəsinin xəbəri olurdu. Belə bir halda onun bir neçə saat telefona cavab verməməsi hamımızı çaşdırmışdı. Muxtarın başında bir qəzanın olmasından şübhələnirdik. Hamımız ilk olaraq onu Ravildən soruşduq. O isə hamıya deyirdi ki, Muxtarı evin 200 metrliyində olan parkın başında maşından düşürüb. Anam gecə saat 4-də Ravilin evinə gedib, yuxudan qaldırıb, ona da deyib ki, Muxtarı orada maşından düşürüb. Muxtarın həyat yoldaşı ona dəfələrlə zəng vurmuşdu, sonra da sms yazıb ki, Muxtar, haradasan, səni hamımız axtarırıq.

Bundan sonra onun telefonu söndürülüb. Biz Xətai Rayon Polis İdarəsində olanda oradan Ravilə zəng eləyib çağırdılar. Ravil ora elə sərbəst şəkildə gəldi ki..."

**Əfsanə Məmmədli bildirir ki, R.İbayev sona qədər cinayəti gizlətməyə çalışıb:** "Deyirdi ki, Muxtarı maşından parkın başında düşürüb, çıxıb gedib. Amma ərazidəki nəzarət kameralarının görüntüləri ilə onun dedikləri üst-üstə düşmürdü. Ravil bölməyə girəndə atamla, qardaşlarımla, əmimlə elə görüşürdü ki, sanki heç nə baş verməyib. Bizdən soruşurdu ki, Muxtarı tapmadız? O, özünü çox arxayın aparır. İşin üstü açılandan sonra gah dedi ki, Muxtar anama, bacıma sataşıb. Sonra dedi ki, yalan danışıram, onu pula görə öldürmüşəm. Bu adam düz söz danışmır. Onun altında 25 minlik maşını var. Qardaşımı pula görə niyə öldürməli idi? Atasının imkanı var. Çaxırlı kəndində 3 mərtəbəli villaları var. Atası Ravilə görə 80 min manat pul xərcləyib. Təhsil almasına pul verib. O, tutulandan sonra deyib ki, qayıdıb akademiyada oxuya biləcəyəm? Ona söz veriblər ki, Muxtarı öldür, heç nəyini itirməyəcəksən. Ravilin qardaşımı pula görə öldürməsinə inanmırıq. Biz ümumilikdə istintaqın gedişindən narazı deyilik. Düşünürük ki, Ravilin qardaşımı öldürməsinin əsl motivi üzə çıxarılmalıdır. Onun gizlətdiyi məqamlar var".

**Mərhum polis əməkdaşının anası deyir ki, R.İbayev cinayəti törədəndə evdə tək olmayıb:** "Müstəntiqə deyib ki, Muxtar evə girdi və geri qayıtmaq istədi, onu vurdum. Muxtar evdə kimi görüb qayıtmaq istəyib? Mənim oğlumun 95 kiloqram çəkisi vardı, Ravil isə 50 kilodur. Onu tək vura bilməzdi. Onun yanında adamlar olub".

**T.Kazımova deyib ki, oğlu öldürülən gün Hövsanda dəniz kənarında ağ rəngli "Ford"la 3 şəxs o yan, bu yana gedib gəliblər:** "Orada həmin adamları bir uşaq görüb. Ona deyiblər ki, çıx get. Ola bilər ki, həmin adamlar Ravillə birlikdə oğlumu öldürən şəxslər olub. Əraziyə baxıblar, sonra da oğlumun meyitini ora gətirib yandırıblar. Bu, tək adamın işi deyil".

**T.Kazımova R.İbayevin psixi problemlərinin olmadığını da deyib:** "Mətbuatda yazırlar ki, Ravildə psixi problemlər olub. Onda heç bir problem yoxdur. Polisdə hər 6 aydan bir yoxlama olur. Əgər dəli idisə, polisdə necə işləyə, Polis Akademiyasında necə oxuya bilərdi?"

Qeyd edək ki, M.Kazımov yoxa çıxandan sonra yaxınları onun axtarışlarına başlayıblar. Sonradan axtarışlara onların məlumatı əsasında polis də qoşulub. Polisin ilk dindirdiyi şəxs M.Kazımovun iş yoldaşı Ravil İbayev olub. O isə M.Kazımovun harada olması barədə heç nə bilmədiyini deyib. Halbuki M.Kazımov elə İbayev tərəfindən öldürülübmüş. İbayev törətdiyi cinayətin üstünün açılacağından qorxaraq Kazımovun meyitini dəniz kənarına aparıb və izi itirmək üçün onu yandırıb.

R.İbayev M.Kazımovun az əvvəl şəxsi avtomobilini satması haqda məlumatlı olub. Maşının pulu da R.İbayev tərəfindən oğurlanıb. Faktla bağlı Bakı Şəhər Prokurorluğunda cinayət işi başlanıb, istintaq tədbirləri davam etdirilir.

❑ E.MƏMMƏDƏLİYEV



# Vaşinqton kürd dövlətinə "yaşıl işıq" yandırmadı

## Məsud Bərzani ilə görüşən Obama və Bayden kürdlərin dövlət deyil, federal İraqda yaşamasına dəstək verdiklərini bəyan edib

**Yaxın Şərqdə kürd dövlətinin yaradılması mövzusu növbəti dəfə Vaşinqtonda ən yüksək səviyyədə müzakirə olunub. ABŞ paytaxtında səfərdə olan İraq kürd muxtariyyətinin lideri Məsud Bərzani Vaşinqtonda prezident Obama və vitse-prezident Cozef Baydenin iştirak etdiyi heyətlə görüşərək müzakirə aparıb.**

"əl-Cəzirə" telekanalının məlumatına görə, Ağ Evdən yayılan açıqlamada ABŞ hökumətinin bütöv, fərqli icmaların marağına ən uyğun variant olaraq bütün tərəflərin iştirak etdiyi bir idarəçilik sisteminin formalaşdığı İraqın tərəfdarı olduğu qeyd edilir. Sitat: "İraq Konstitusiyasında da göstərildiyi kimi, birləşmiş, federal v demokratik bir İraqı dəstəkləyirik".

Qeyd edək ki, daha əvvəl kürd liderlər ABŞ-ın müstəqil kürd dövləti yaradılması məsələsinə normal yanaşdığını bildirsələr də, Vaşinqton heyətlər arasında görüşdən sonra qəti mövqeyini elan edib. Ağ Evdən verilən açıqlamada İraqdakı fərqli qruplar arasında İŞİD-ə qarşı mübarizədə vahid koordinasiyanın təmin olunduğu və əməkdaşlığın uğurlu olduğu qeyd edilir.

İraqın işğalından sonra şimaldakı kürd muxtariyyətinin mövqeləri xeyli dərəcədə güclənib. Məsud Bərzaninin rəhbərlik etdiyi kürd muxtariyyəti faktiki olaraq Bağdadla hesablaşmır, neft ticarətini müstəqil həyata keçirir, öz ordusuna (peşmərgə) sahibdir və daxildə ciddi müstəqilliyə nail olub. Ötən ilin iyununda İŞİD-in Mosulu ələ keçirməsindən sonra İraq ordusunun şimaldakı hissələri pərakəndə duruma düşüb və kürd bölgələrinə yaxın ərazilər, o cümlədən strateji əhəmiyyətli Kərkükə nəzarət kürd peşmərgələrinin əlinə keçib. Məhz bu dövrdən sonra kürdlərin müstəqillik yollarının açılması ilə bağlı məlumatlar yenidən gündəmə gəlib. Kürdlər isə Kərkükə iddialıdır və bu mövzuda, ümumiyyətlə, kürdlərin faktiki olaraq Bağdada tabe olmaması məsələsində hazırda Ərbil və Bağdad arasında gərginlik davam edir. Doğrudur, ötən ilin sentyabrında İraqda yeni hökumətin qurulması, eyni zamanda İŞİD təhlükəsi kürdləri Bağdadla yaxınlaşdırsa da, Bərzani yaranmış fürsətdən istifadə etməyə çalışır. Ötən ilin dekabrında Bərzani bildirib ki, İŞİD-in hücumlarına baxmayaraq referendum və müstəqillik fəaliyyətlərini dayandırmayacaqlar. Sitat: "Yüz, hətta min İŞİD gəlsə belə Kürdüstanın müstəqilliyi və referendum prosesi davam edəcək".

Bərzaninin Vaşinqtona səfər edib yüksək səviyyəli görüşlər keçirməsi İraqdakı vəziyyətlə yanaşı kürdlərin gələcək taleyi və bölgəyə verilən mesajdır. Əlbəttə, aydın məsələdir ki, Vaşinqtonda bağlı qapılar arasında ötən 100 il ərzində olduğu kimi kürdlərə hansısa vədlər, dəstək verilib. Lakin həmçinin Vaşinqton kürd məsələsi ilə bağlı qəti mövqeyini də ortaya qoymaqla bütün tərəflərə aydın mesaj verib. Aydın olur ki, Vaşinqton hazırda kürd dövlətinin yaradılmasına razı olmayacaq və İraqın daxili problemlərini həll etməsi, daha da güclənməsində maraqlıdır. Məsələ burasındadır ki, Vaşinqton indiki durumda ərəb ölkələrində separatizmin güclənməsinə səbəb olacaq addımlardan çəkinir. Çünki İŞİD nümunəsi göstərdi ki, vəziyyət çox tez nəzarətdən çıxa bilər və onsuz da kövrək olan sərhədlər dəyişə bilər. Buna isə bütövlükdə bölgə ölkələri tab gətirə bilməzlər. İndi daha optimal yol mövcud dövlətlərin daha da gücləndirilməsi, daxili təhlükəsizliyin möhkəmləndirilməsi və islamçı terror qruplarının fəaliyyət imkanlarını aşağı salmaqdır. Bu məsələ hətta Suriya prezidenti Bəşər Əsədə belə göz yummağa əsas verir. Bu mənada görünür ki, Vaşinqtonda kürdlərə müstəqillik arzularını bir müddət kənara qoymaq tövsiyə olunub.

❑ KƏNAN

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 98 (6126) 7 may 2015

**May ayı Qarabağ münaqişəsinin tarixində bir neçə hadisə ilə xüsusi fərqlənir. Sabah Azərbaycanın incisi Şuşa şəhərinin işğal edilməsinin 23-cü ildönümü tamam olacaq. Ardınca "anklav" Dağlıq Qarabağla Ermənistanın quru yolunun açılmasına gətirən Laçının işğal günü gəlir. Mayın 12-də isə atəşkəsin 21-ci ildönümüdür.**
**Əfsuslar olsun ki, bu qədər böyük müddət də ATƏT-in Minsk Qrupuna problemi yerindən tərpətmək üçün kifayət etmədi.**




# Şuşanın işğal günü ərəfəsində acı Qarabağ həqiqətləri

## Qərblə Rusiya çəkişsə də, Qarabağ məsələsində birləşir; vasitəçi dövlətlərin ikili standart yanaşmasına Azərbaycan sonsuzadək dözməyəcək; amerikalı ekspert ABŞ-ı BMT qətnamələrinin yerinə yetirilməsi yönündə ciddi addımlar atmağa çağırdı...

Bu müddətdə Azərbaycan və Ermənistan prezidentləri arasında 26 (!) görüş keçirilib, həll variantı adına Azərbaycana müxtəlif təslimçi variantlar təqdim edilib və... konflikt çözülməmiş qalıb.

*****

21 ilin son boş akkordlarından biri də mayın 3-də işğal altındakı Dağlıq Qarabağda 6-cı dəfə keçirilən qanunsuz "parlament seçkiləri" oldu. Vasitəçilər bu saxta seçkiləri də seyr eləməklə, bir də şablon bəyanatla kifayətləndilər.

Atəşkəsin 21 illiyi ərəfəsində keçirilən "seçkilər" əslində həm də bir lakmus kağızı rolunu oynamaqla kimin kim olduğunu, həmsədrlərin nə dərəcədə məsələyə, daha doğrusu, beynəlxalq hüquq normalarına, BMT və ATƏT-in təməl prinsiplərinə səmimi və ciddi yanaşdıqlarını nümayiş etdirdi.

Məlumdur ki, vasitəçilər Avropa Birliyi, NATO, ABŞ, Türkiyə, Gürcüstan, Ukrayna, İran bu seçkilərin qeyri-legitim olduğu haqda Azərbaycanın xeyrinə bəyanat verdilər. Ancaq diqqəti həm də o çəkdi ki, vasitəçilərin, Amerikanın bəyanatlarında qanunsuz seçkilərin tanınmaması ilə yanaşı, "Dağlıq Qarabağ konflikti Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir" cümləsini görmədik. Krım Ukraynanın, Abxaziya və Cənubi Osetiya Gürcüstanın ayrılmaz tərkib hissəsidir deyən ABŞ, Fransa rəsmiləri nədənsə "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz parçasıdır" demədilər.

*****

**Rusiya isə münaqişənin baş suçlusu kimi, ümumiyyətlə, münasibət bildirmədi. Bu xüsusda qonşu İranın mövqeyi təqdir edilə bilər. Belə ki, İranın Azərbaycandakı səfiri Möhsün Pak Ayin mətbuata açıqlamasında ölkəsinin 3 may qanunsuz seçkiləri tanımadığını bəyan eləməkdən əlavə bildirib ki, "Dağlıq Qarabağ Respublikası adında ölkə yoxdur və İran İslam Respublikası belə "ölkə" tanımır:** "Təbii ki, orada keçirilən "seçkiləri" də biz qəbul etmirik".

**Səfir onu da əlavə edib ki, Tehran hər zaman münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yoluna qoyulmasını istəyib. Sitat:** "Arzularımızdan biri də o olub ki, BMT-nin qəbul etdiyi dörd qətnamə icra olunsun. Bu münaqişə beynəlxalq hüquq müstəvisində və çərçivəsində həllini tapmalıdır".

**Diplomat ixtilafın indiyədək uzanmasının səbəblərinə də toxunub:** "Minsk Qrupu münaqişənin həlli istiqamətində daha məsuliyyətli addımlar atmalıdır. Regionda baş verən hadisələr, xüsusilə Ukrayna hadisələri bir daha göstərir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan dövlətlər mövzudan yayınıb. İran sərhədləri yaxınlığında baş verən qeyri-sabitliyə görə narahatdır. Problemin yoluna qoyulması nəinki Azərbaycanın, eyni zamanda İranın da inkişafını sürətləndirər".

**Səfir Minsk Qrupunu da haqlı tənqid edib:** "Minsk Qrupunun fəaliyyəti İranı qətiyyən qane etmir. Bu məsələdə biz nikbin deyilik. Xüsusilə regiondan kənar ölkələrin münaqişəyə ikili standartlarla yanaşması qəbul edilən deyil. Həmsədr ölkələrin hər üçü BMT Təhlükəsizlik Şurasının üzvüdür. Bəs nə üçün onlar özlərinin qəbul etdiyi qətnamələrin icrasına nail ola bilmir? Həmsədrin hansı ölkə olduğu o qədər də önəmli deyil. Əsas odur ki, vasitəçi dövlətlər öz vəzifələrini məsuliyyətlə yerinə yetirsin. Problem ondan ibarətdir ki, həmin ölkələr öz işlərini görmək istəmir".

**"Qərb Ukrayna münaqişəsinə verdiyi reaksiyanı niyə artıq iki onillikdir, davam edən münaqişəsinə münasibətdə göstərmir" sualına cavabında diplomat deyib ki, Ukrayna Avropanın "enerji yoludur".** "Məhz buna görə Ukrayna münaqişəsinə bu cür reaksiya verildi. Mənə belə gəlir ki, aidiyyəti ölkələr Ukrayna hadisələrinə daha çox diqqət ayırdı", - deyə diplomat vurğulayıb.

*****

İndi bu, vasitəçi olmayan İranın mövqeyi, o da 20 ildən artıqdır guya problemin ədalətli həllinə çalışan həmsədr dövlətlərin ikili standart yanaşması. Qəribədir ki, Rusiya ilə Qərb arasında "soyuq savaş" başlasa da, bu, tərəflərin Dağlıq Qarabağ məsələsinə ənənəvi yanaşmasına təsir etməyib. Hələ ki ABŞ, Rusiya və Avropanı Qarabağ məsələsinə münasibətdə birləşdirən yeganə ortaq maraq geniş miqyaslı hərbi əməliyyatlara imkan verilməməsi, yəni status-kvonun saxlanmasıdır.

Bu isə o anlama gəlir ki, həmsədr ölkələr erməni təcavüzünün davam etməsindən, Azərbaycan ərazilərinin işğal altında, Qarabağa dair beynəlxalq səviyyədə qəbul edilmiş sənəd və qətnamələrin isə reallaşmamış qalmasından bir elə narahat deyillər.

*****

**Bu arada ABŞ-dakı "Catholics for Choice" təşkilatının baş mütəxəssisi Qlen Nozern "The Hill" qəzetində yer alan məqaləsində ABŞ-ı BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair 4 qətnaməsinin yerinə yetirilməsi üçün ciddi addımlar atmağa çağırıb (APA).**




**O, mayın 8-də Şuşanın işğalı günü olduğunu xatırladıb.**

**Sitat:** "Bir vaxtlar Azərbaycanın klassik musiqi səhnəsi və Orta Şərqdə ilk operanın vətəni olan tarixi şəhər Şuşanın işğalı və dağıdılmasından 23 il keçir. Bu şəhər musiqiçiləri, bəstəkar və ifaçıları ilə tanınıb. İndi isə erməni işğalı və sistemli etnik təmizləməsinə məruz qalıb".

**Q.Nozern qeyd edib ki, 1992-ci ilədək Azərbaycanın ən məşhur şəhərlərindən olan Şuşanın əhalisinin 92 faizi azərbaycanlılar olub. Onun sözlərinə görə, şəhərin işğalı Ermənistan ordusu tərəfindən Xocalı şəhərində 613 azərbaycanlıya qarşı törədilən qırğınlardan sonra baş verib.** "Amerika Azərbaycanlıları Şəbəkəsinin (USAN) üzvü olaraq, 400 min Amerika azərbaycanlıları və 40 milyondan çox dünya azərbaycanlıları adından Amerika Birləşmiş Ştatlarını BMT TŞ-nin 4 qətnaməsinin və Baş Assambleyanın digər qətnamələrinin yerinə yetirilməsi üçün ciddi addımlar atılması istiqamətinə öz təsir gücünü istifadə etməyə çağırıram. Bu qətnamələr işğalçı erməni qüvvələrinin Azərbaycanın ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Amerika azərbaycanlıları adından səlahiyyətli şəxsləri bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli üçün əllərindən gələni etməyə çağırıram".

*****

Belə çağırışlar isə az qala, on illərdir eşidilməz qalmaqdadır. Buna görədir ki, sabah Şuşanın işğalının növbəti, 23-cü ili tamamlanacaq. İşğal günü ərəfəsində acı gerçəkliklərdən biri də dünyanın Azərbaycan ərazilərinin Ermənistan tərəfindən zəbt edilməsinə davamlı laqeyd münasibətidir.

Demək, Azərbaycanın öz iqtisadi-hərbi qüdrətini, beynəlxalq imicini gücləndirib günün birində öz ərazi bütövlüyünü zorla bərpa etməyə hazırlaşmaqdan savayı çıxış yolu qalmayıb. Təbii ki, paralel surətdə qardaş Türkiyə ilə birgə uğurlu və ortaq Qarabağ konsepsiyasına söykənməklə...

## "Qarabağ və Krımın işğalı eyni dəst-xətdir"

### Ruslana: "Azərbaycan və Ukrayna xalqları qohum xalqlardır..."


Ruslana

**Ukraynanın xalq artisti, tanınmış ictimai-siyasi xadim, "Eurovision" musiqi yarışmasının qalibi Ruslana vesti.az saytına müsahibəsində Krım və Dağlıq Qarabağ münaqişələri arasında paralellik aparıb.**

"Gəldilər və bizim torpaqlarımızı zəbt elədilər. Bu məsələlərdə birmənalı olaraq paralellik var. Qarabağ və Krımın işğalı eyni dəst-xətdir. Əgər şərin qarşısı alınmasa, belə konfliktlər hər yerdə qızışacaq" - deyib Ruslana.

O, Ukraynadakı Azərbaycan diasporundan da razılıq edib: "Onlar gözəl insanlardır. Biz doğma kimiyik. Azərbaycan və Ukrayna xalqları qohumluq əlaqələrinə malikdir. Bizim aramızda qarşılıqlı məhəbbət və qarşılıqlı heyranlıq var. Mən sizin xalqı sevirəm".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Biz nə istehsal edirik?

**Natiq Cəfərli:** "Gələcəkdə xammalın gətirilməsi ilə bağlı hər hansı bir problem yaşansa, əksər sahələrdə daxili istehsal dayanacaq"



**Hər gün market və bazarlarda minlərlə çeşidi olan məhsulla qarşılaşırıq. İstər ərzaq, istər geyim, istər elektrotexniki avadanlıqlar, istərsə də qaz, elektrik enerjisi və sair. Bəs görəsən, gündəlik həyatımızı təmin etmək üçün istifadə etdiyimiz A-dan Z-yə hər bir məhsulun neçə faizi Azərbaycanda istehsal edilir? Ölkə olaraq biz öz tələbatımızı nə dərəcədə ödəyə və xarici bazara nələr çıxara bilirik?**

"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, Azərbaycanda istehsalın ən böyük payı neft və neft məhsullarının üzərinə düşür: "Dövlət Statistika Komitəsinin ixrac olunan məhsullarla bağlı verdiyi məlumata görə, Azərbaycan ixracatının əsas hissəsini neft və neft məhsulları tutur. İxracın təqribən 95 faizə yaxını neft məhsullarının payına düşür, cəmi 5 faizini isə qeyri-neft sektoru təşkil edir. Burada da əsas yeri kənd təsərrüfatı məhsulları, bəzi hallarda isə tikintidə istifadə olunan və Rusiyadan xammal şəklində gətirilərək ölkədə emal olunan tikinti materialları tutur. Ancaq ixracatın böyük bir hissəsi enerji sektoruna bağlıdır. İxracın 90 faizə yaxını xam neftin, təqribən 3-4 faizi neft məhsullarının, 2-3 faizi də qazın payına düşür. Bu qeyri-neft sektorunun dayanıqlı olmadığının göstəricisidir. Hökumət tez-tez qeyri-neft sektorunun inkişafı ilə bağlı səs-küylü bəyanatlar versə də, ixracatda bu görünmür. Hətta son illərdə ixracatda enerji sektorunun payı artır".

**İqtisadi ekspertin sözlərinə görə, qeyri-neft sektoru haqda informasiyalar daha bədbindir:** "Daxili tələbat üçün isə ərzaq məhsullarına olan tələbatın ödənilməsinin 50 faizi yerli istehsalın hesabına baş tutur, 50 faiz ərzaq məhsulu idxal olunur. Burada da çox ciddi bir məsələ var ki, Azərbaycan məhsulu adı altında istehsal olunan ərzaqların xammalı xaricdən gətirilir. Bu ən çox çay məhsullarında özünü büruzə verir. Azərbaycanda çoxlu sayda yerli çay adı altında istehsal olunan, lakin xammalı xaricdən gətirilən məhsullar var. Bu çayların böyük bir hissəsi xaricdən gətirilib burada qablaşdırılır, bazara isə Azərbaycan çayı adı ilə çıxarılır. O cümlədən, süd məhsullarının istehsalında da yerli şirkətlərin məhsulları bazarda üstünlük təşkil edir. Ancaq burada da problem ondan ibarətdir ki, süd məhsullarının istehsalı üçün xammal kimi lazım olan quru süd xaricdən gətirilir, Ukraynadan, Hollandiyadan, bəzi hallarda isə Türkiyə və İrandan belə quru süd alınır. Burada problem ondan ibarətdir ki, xaricdən alınan xammal hesabına hazırlanan məhsullar bazara yerli mal adı ilə çıxarılır. Bu çox ciddi təhlükə deməkdir. Çünki gələcəkdə xammalın gətirilməsi ilə bağlı hər hansı bir problem yaşansa daxili istehsalda da problem yaşanacaq. Bu məsələlərə illərdir ki, diqqət yetirilmədiyindən Azərbaycanda qeyri-neft sektorunun bu tipli problemləri var. Çox təəssüf ki, son illərdə dayanıqlı inkişaf modelinə keçid mümkün olmayıb". **Natiq Cəfərli onu da vurğuladı ki, bəzi sahələr, ümumiyyətlə, yüz faiz idxaldan asılıdır:** "Bu, əsasən tekstil sahəsinə aiddir. Hazır geyimlərin təqribən 90 faizdən çoxu xaricdən gətirilir. Elektrotexnika və məişət avadanlıqlarında yüz faiz idxaldan asılılığımız var. Azərbaycanda yüngül sənayenin inkişafı üçün güclü potensial olsa da son illərdə bu potensial çox aşağı enib. Cəmi 20 il bundan öncə Azərbaycanda çox ciddi pambıqçılıq sənayesi var idi, pambıq istehsalı mövcud idi. Son rəqəmlər göstərir ki, Azərbaycanda pambıq istehsalı 40-50 min tona qədər enib. Bu da yüngül sənayenin inkişafına problem yaratdı və biz xaricdən mal almaq məcburiyyətində qaldıq. İndi hazır geyimdə biz 90 faizdən artıq xaricdən asılıyıq. Halbuki yüngül sənayeni inkişaf etdirmək üçün elə də güclü texnologiyaya ehtiyac yoxdur. Sadəcə, vaxtında güclü dövlət dəstəyi və yaxşı investisiya layihələri olsa idi, ən azı bu sahədə irəliləyiş əldə etmək mümkün idi".



**Tütün məhsulları və spirtli içkilər bazarında da vəziyyətin ürəkaçan olmadığını bildirən ekspert burada da xammal problemini önə çəkdi:** "Təbii ki, həm spirtli içkilərdə, həm də tütün məhsullarında yerli istehsal var və biz bazarlarda bu məhsulları görürük. Sadəcə, burada da xammal problemi var. Azərbaycanın əvvəllər tütünçülüklə bağlı çox böyük potensialı var idi. Qax, Zaqatala bölgəsində tütünçülük təsərrüfatları mövcud idi. Son illərdə isə burada da vəziyyət pisləşdi, tütün istehsalı xeyli azaldı. Bunun nəticəsi olaraq biz yeli istehsal olan tütün məhsullarının xammalını xaricdən almağa məcburuq. Spirtli içkilərdə vəziyyət bir qədər yaxşıdır. Azərbaycanda istehsala kifayət edəcək qədər xammal var. Son illərdə bu sahədə müəyyən irəliləyişlər olub və Azərbaycanda üzümçülüyün inkişafı bu sahədəki göstəricilərin yaxşılaşması ilə nəticələndi. Xammal yetərincə var, ancaq burada da istehsalda istifadə olunan bəzi məmulatlar xaricdən alınır. Spirt şəklində xaricdən alınmalar Azərbaycana gətirilir və yerli istehsalda istifadə olunur".

**N.Cəfərlinin sözlərinə görə, xaricdən asılı olduğumuz sahələr arasında əczaçılıq, yüngül sənaye, elektronika əsas yer tutur:** "Bir çox sahələrdə isə, məsələn, məişət texnikası və elektrotexnika sahəsində yüz faiz idxaldan asılılıq mövcuddur. Əczaçılıqda yüz faizə yaxın asılılıq var. Çünki Azərbaycanda farmotexnika demək olar ki, yoxdur. Dərman preparatlarında yerli istehsal yoxdur, bütün mallar xaricdən gətirilir. Yüngül sənayedə asılılıq çoxdur. Ayaqqabı bazarında 100 faiz asılılıq var. Yerli istehsal demək olar ki, yoxdur. Əvvəllər bir neçə fabrik var idi, lakin indi onlar da sökülüb, yerində hündür mərtəbəli binalar tikilib. Bütün bu sahələr əvvəllər Azərbaycanda var idi. Onları yenidən bərpa etmək əvəzinə, tamamilə məhv etdilər. Bu səbəbdən də əksər sahələrdə idxaldan asılıyıq".

❑ **Nərgiz LİFTİYEVA**



## Ağcabədi sakini baltalandı

**Ağcabədi rayonunda qətl hadisəsi baş verib. Lent.az-ın əldə etdiyi məlumata görə, Aşağı Avşar kənd sakini, 30 yaşlı Saqibət Qədimov bu gecə naməlum şəxs və ya şəxslər tərəfindən evdən küçəyə çağırılıb. O, həmin şəxslərlə kəndin kənarına gedib və burada naməlum şəraitdə baltalanıb. Bildirilir ki, S.Qədimov Bakıda yaşayırmış və burada tikinti sahəsində çalışırmış. O, rayona müvəqqəti olaraq yaxınlarına baş çəkməyə gedibmiş. Qeyd edək ki, S.Qədimov ailəli olub.**



## Bakıda sürücü yol polisini döydü

**Bakıda yol hərəkəti qaydasını pozan sürücü polis əməkdaşını vurub. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, hadisə Nəsimi rayonu ərazisində baş verib. Mayın 4-də saat 19 radələrində Bakıxanov küçəsində "Mercedes" markalı avtomobilin sürücüsü Azər Əhmədov yol hərəkət qaydasını pozub. Buna görə də ərazidə xidmət edən Yol Patrul Xidməti Alayının serjantı Ağamoğlan İbrahimov tərəfindən saxlanılıb. Bu zaman sürücü polisə tabe olmayıb və onu vuraraq yerə yıxıb. Xəsarət alan polis əməkdaşı təcili tibbi yardım stansiyasında yardım alıb evə buraxılıb.**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

# Türkiyədəki quş qripi Azərbaycana keçə bilərmi?



**Türkiyənin bəzi rayonlarında "quş qripi"nin aşkarlandığı haqda xəbər verilib. Virusun ev quşlarına köçəri quşlardan keçdiyi bildirilir. Bölgə karantin altına alınıb.**

Qeyd edək ki, Türkiyədən ölkəmizə diri quş, quş əti məhsulları və damazlıq yumurtalar idxal olunurdu. Quş qripi ilə bağlı xəbərdən sonra mayın 5-dən Balikəsir və ona yaxın olan Kutahya, Bursa, İzmit, Bandırma, Çanaqqala, Berqama, Akhisar və Manisa bölgələrindən diri quş, quş məhsullarının və eləcə də damazlıq yumurtaların Azərbaycana idxalı müvəqqəti dayandırılıb.

## Baytarlıq Xidmətinin rəsmisi monitorinqlərə başlandığını, Azad İstehlakçılar Birliyinin sədri isə yerli ekspertizanın dünya ekspertizasının arxasında gizləndiyini deyir...

**İndi hər kəsi düşündürən xəstəliyin Azərbaycana da gələ bilmə təhlükəsinin olub-olmamasıdır. Dövlət Baytarlıq Xidmətinin mətbuat xidmətinin rəhbəri Yoçu Xanvəli artıq monitorinqlərə başladıqlarını dedi:** "Məqsəd ölkəmizin ekzotik vəziyyətini, quşlarımızı, insanlarımızı bu xəstəlikdən qorumaqdır. Yalnız Türkiyədə deyil, bundan əvvəl Avropa ölkələrinin bir çoxunda bu xəstəlik qeydə alınmışdı. Eləcə də Böyük Britaniyada, Almaniyada, Hollandiyada, Polşada, Bolqarıstanda quş qripinin ayrı-ayrı yüksək, az patogenlisi vardı. Bununla əlaqədar həmin ölkələrə də məhdudiyyət tətbiq edilib. Həmin məhdudiyyət bu gün də öz qüvvəsindədir. Hazırda ölkəmizə quş əti Braziliyadan və İrandan gətirilir".

**Y.Xanvəli bütün bu tədbirlərlə yanaşı, quş qripinin Azərbaycana gəlməsinin qarşısını almaq üçün monitorinqlər apardıqlarını bildirdi:** "Biz birinci dəfə monitorinqi aprel ayında aparmışdıq. Quş qripinə görə mayın 4-dən etibarən ölkədə ikinci dəfə monitorinq aparmağa başlamışıq. Bizim mütəxəssislər artıq Abşeron milli parkında, Şabranda olublar. Mayın 6-da isə Ağcabədidə Ağgöl ərazisində olublar. Mayın 7-də Lənkərandakı Qızılağac dövlət qoruğunda olacaqlar. Həmçinin Salyanda milli parkda, yəni ayrı-ayrı yerlərdən miqrasiya edib gələn köçəri quşlardan seçmə üsulu ilə quşlar ovlanılır və onlardan nümunə götürülür. Bizdəki məlumata görə, Abşeron Milli Parkında, Şabranda və Ağcabədidə quşlar arasında hansısa narahatçılıq qeydə alınmayıb. Quşlardan götürülən nümunələrin ayın 17-də Respublika Baytarlıq Laboratoriyasında müayinəsi başa çatacaq və o vaxtda biz ictimaiyyətə məlumat verəcəyik. Həmçinin ev quşlarından da qan nümunələrinin və pataloji materialların götürülməsini nəzərdə tutmuşuq. Ölkənin ayrı-ayrı quşçuluq təsərrüfatlarından, şəxsi təsərrüfatlardan qan və patoloji materiallar gətirilir Respublika Baytarlıq Laboratoriyasında müayinə edilir. Hələlik bu günə qədər ölkəmizdə quş qripinə görə vəziyyət sabitdir. Bu sabitliyi təmin etmək üçün Dövlət Baytarlıq Nəzarət Xidməti digər aidiyyəti qurumlarla birlikdə lazımi addımları davam etdirir".

Bəzi insanlar yerli quş biznesi ilə məşğul olan istehlakçıların Türkiyədəki quş qripi ilə bağlı məsələni oradan Azərbaycana quş istehsalının qarşısını almaq üçün şişirdiyini də iddia edir. Maraqlıdır, bəs iddia nə dərəcədə doğrudur?

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bu məsələnin istisna olunmadığını bildirdi:** "Azərbaycana daha çox məhsul göndərən "Banvit" şirkətinin mallarını müəyyən etdi və məlum oldu ki, bu şirkətin məhsullarında heç bir problem yoxdur. Çox təəssüflər olsun ki, Azərbaycan ekspertizası dünya ekspertizasının arxasında gizlənir. Mən bir dəfə olsun görməmişəm ki, Azərbaycan ekspertizası nəyisə müəyyən etsin və dünya dövlətləri də bundan nəticə çıxartsın. Yaxşı olar ki, Azərbaycan ekspertizası yerli quşçuluq fabriklərinə nəzər salsın. Orada quş ürünləri var ki, onlar cəmiyyətdən gizlindir. Bir kilodan az kiçik quşların satışa çıxarılması ilə bağlı əhalidə rəy var ki, onlar ölmüş quşlardı. Bu sahədə xeyli qaranlıq və qeyri-müəyyənlik mövcuddur. Təsadüfi deyil ki, Azad İstehlakçılar Birliyi ABŞ-ın inkişaf agentliyinin təsis etdiyi Azərbaycan istehlakçılarının qida təhlükəsizliyi nişanını quşçuluq fabriklərinə şamil etmək istəyir. Ancaq normal quşçuluq fabriki tapa bilmirik ki, orada monitorinq aparaq və nişanı onlara şamil edək. Ölkəmizdə qidanın təhlükəsizliyi haqda qanun yoxdur".

❑ **Günel MANAFLI**

# Evi sökülən vətəndaş kompensasiya ala bilmir

## "Məhkəmə söküntünü hansı qurum tərəfindən həyata keçirdiyini aydınlaşdıra bilmədi"

**Nəsimi rayonu, Rasim Səfərov küçəsi, ev 149 ünvanında yaşayan Mahal Həsənov redaksiyamıza şikayət edərək bildirir ki, 2009-cu ildə onun evi dövlət ehtiyacları adı ilə sökülüb və hələ də kompensasiya ödənilməyib.**

Şikayətçi qeyd edir ki, hazırda yaşadıqları ev onun anasının adınadır və hər bir sənədi var. Lakin həmin evin həyətində tikdirdiyi, sənədsiz tikili 2009-cu ilin sentyabrında ərazidə aparılan abadlaşdırma işləri ilə bağlı sökülüb. M. Həsənov deyir ki, sökülən evin sənədi olmasa belə ölkə başçısının sərəncamına görə, qanunsuz tikililərə hər kvadratına görə 1500 manatdan kompensasiya verilməlidir. Ancaq ev söküldükdən sonra Mahal Həsənova nə kompensasiya, nə də əvəzində mənzil verilməyib.

Şikayətçi bildirir ki, kompensasiya tələbi ilə məhkəməyə müraciət edib. Lakin məhkəmə söküntünü hansı qurum tərəfindən həyata keçirdiyini aydınlaşdıra bilməyib. Bu səbəbdən kompensasiyanı kimin ödəyəcəyi hələ də sual altındadır. Mahal Həsənovun sözlərinə görə, onun qonşularından üçünün həmin vaxt evi sökülsə də onlar kompensasiya ala biliblər, ikisinə torpaq, birinə isə ev verilib. Kompensasiyanı "Azərsun" şirkəti ödəyib. Lakin növbə Mahal Həsənova çatanda "Azərsun" rəhbərliyi məhkəməyə bildirib ki, onlar "Paşa Holdinq"in tərkibində fəaliyyət göstərdikləri üçün birbaşa cavabdeh deyillər. "Paşa Holdinq"in müstəntiqi isə bunu inkar edib.



Şikayətçinin sözlərinə görə, söküntü aparılarkən ərazidə Nəsimi Rayon İcra Hakimiyyətinin, Bakı Şəhər İcra Hakimiyyətinin, "Azərsun" şirkətinin və "Dia Holdinq"in nümayəndələri olub. İndi isə bu 4 qurumdan heç biri kompensasiya ödənilməsini öz üzərinə götürmür.

**Mahal Həsənov dəfələrlə Nəsimi Rayon İcra Hakimiyyətinə müraciət etdiyini deyir:** "İcra hakimiyyətinin hüquq şöbəsinin müdiri Vasif Əliyev mənə dedi ki, evin hansı şirkət tərəfindən söküldüyünü bilmirlər. Ancaq bu mümkün deyil, çünki məhz söküntü zamanı Nəsimi RİH nümayəndəsi ərazidə olub".

**Şikayətçi sökülən mənzilin 70 kvadratmetr olduğunu və hər kvadratına görə 1500 manat tələb etdiyini qeyd etdi:** "Hər kvadratmetrini 1500 manatdan hesablasaq, mənə 105 min manat kompensasiya verilməlidir. Xahiş edirəm, bunu qəzetdə işıqlandırın. Qoy ölkə başçısı görsün ki, vətəndaş necə incidilir. Mən yoldaşım, 3 oğlum, gəlinlərim və 4 nəvəmlə birlikdə 137 kvadratlıq bir mənzildə yaşayıram. O həyətdəki evi oğlum üçün tikmişdim. İndi mənə ya pul, ya da ev versinlər ki, oğlanlarımı ayrı evə çıxara bilim. 12 nəfərin bir evdə yaşaması təsəvvür edin nə deməkdir. İnanıram ki, tezliklə problemim həll olunacaq".



❑ **Nərgiz LİFTİYEVA**







# Şəhid anasının torpağını əlindən almaq istəyirlər

## Firəngiz Məmmədova: "Şikayətlərimə baxan yoxdur..."

**"Mənim mülkiyyətimdə olan torpağı özünü Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevin qohumu kimi təqdim edən şəxslər zorla almaq istəyir. Artıq 3 ildir ki, məni rahat yaşamağa qoymurlar".**

Bu sözləri redaksiyamıza müraciət edən Bakı şəhər sakini, şəhid anası Firəngiz Məmmədova deyib. Şikayətçi haqqının tapdalandığını və heç bir aidiyyəti qurumun ona kömək etmədiyini bildirdi: "Oğlum 1992-ci il noyabrın 3-də Dağlıq Qarabağda Çıldıran kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olub. Mən bir şəhid anasıyam. Yoldaşım da 2012-ci ildə uzun sürən xəstəlik nəticəsində itirdim. Onun müalicəsi ilə əlaqədar 2012-ci ilədək Bakı şəhəri, Nizami rayonu, S.Şərifli küçəsi - bina 82, mənzil 24 ünvanında yaşadığımız mənzili satdıq. Bundan sonra Nizami rayonu, Yavər Əliyev küçəsində yerləşən həyətyanı sahədə, qonşuların verdiyi vaqonda yaşadıq. Vaqonun yerləşdiyi torpaq özümündür. Ancaq özünü Valeh və Alim kimi təqdim edən və Rövnəq Abdullayevin qohumu olduğunu deyən şəxslər iki ildir ki, torpağımı əlimdən almağa çalışır. Ailəmiz  bu torpaq sahəsindən 40 ildir ki, istifadə edir-əkib becərir. 2006-cı ildə isə torpağa mülkiyyət hüququnu təsdiq etmək üçün Nizami Rayon İcra Hakimiyyətinə müraciət edib müsbət cavab almışam. Mən şəhid anası kimi bu gün bir qrup dələduzun hücumuna məruz qalıram. Həmin şəxslər ailəmi zorla həmin ərazidən çıxarmağa çalışır. Gəlib əkin-biçin sahəmi dağıdıblar. İş o yerə çatıb ki, 2015-ci il aprelin 9-da gecə həmin əraziyə hücum edibələr, bütün əşyalarımı maşına yığıb naməlum istiqamətdə aparıblar. Dolanmaq üçün mən mərasimlərdə yemək bişirirəm. Bunun üçün lazım olan qazanlarımı da aparıblar. Bu adamlar məni həm qazanlarımdan, həm də qazanmaqdan məhrum ediblər. Üç il əvvəl də eyni adamlar bizim yaşamaq ucun həmin ərazidə qoyduğumuz  vaqon evi gecə ikən oğurladılar. Həmin vaxt da 25-ci polis bölməsinə şikayət etdim. Ancaq şikayətimə baxan olmadı. İndi də Qarabağ şəhidi olan balamın əkdiyi iri ağacları kəsməklə məni hədələyirlər ki, mən öz  həyətimdən, torpağımdan əl çəkib oranı bunlara verim. Bütün bunlarla bağlı Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya teleqram vurdum. Cavab Bakı Baş Polis İdarəsinə göndərilsə də nəticə yoxdur. Mən bu zorakılığa  baş əymək istəmirəm".

Şikayətçi qəzetimiz vasitəsilə prezidentə müraciət edərək haqqının və hüquqlarının qorunmasına yardım etməsini xahiş edir.

İttihamlarda adı hallanan qarşı tərəfin mövqeyini də dərc etməyə hazırıq.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 98 (6126) 7 may 2015



# Əlindən diş çıxdı

İngiltərədə bir gənc sağ əlinin şişindən və dözülməz ağrılardan şikayətlənirmiş. Həkimlər hospitalda müayinəyə başlayanda heyrətlərini gizlədə bilməyiblər. Çünki həmin gəncin şişmiş əlində diş varmış. Milli.az "Daily Mail"ə istinadən bildirir ki, rentgen müayinəsinin nəticələri əldə, barmaq sümükləri arasında dişin olduğunu aşkar göstərib. Cərrahiyyə əməliyyatı aparılıb və diş çıxarılıb.

İngiltərənin İst Qrinsted şəhərindəki "Queen Victoria Hospital"da əməliyyata məruz qalmış gəncin dediyinə görə, boksla məşğul olur. "Zalda məşq edəndə əllərimdə boks əlcəyi yoxdu. Qarşımdakı manekenə yumruq vuranda qardaşım qəflətən qarşıma keçdi. Yumruğum onun ağzına dəydi. Görünür, elə həmin zərbə zamanı qardaşımın dişi əlimə giribmiş", - 19 yaşlı gənc deyib. Əməliyyata rəhbərlik etmiş professor Roşan Vijayanın sözlərinə görə, əgər bu gənc bir qədər gec müraciət etsəydi, onun əlində iltihab, irinləmə və əzələ çürüməsi, sonra da qanqrena başlaya bilərdi.

# Eynşteynin beyni sərgidə

**Albert Eynşteynin illərdir saxlanılan beyin hissəcikləri Filadelfiyadakı bir muzeydə sərgilənməyə başlayıb. Dünya tarixinin ən ağıllı adamlarından sayılan Eynşteyn 1955-ci ildə ölməmişdən qabaq "heç kəs sümüklərimə sitayiş etməsin", - deyə vəziyyət edərək cəsədinin yandırılmasını istəmişdi.**

Məşhur alimin bu vəsiyyəti yerinə yetirilib və külü Amerikanın Delavera çayına tökülmüşdü. Cəsəd yandırıldıqdan sonra üzərində beyninin və gözlərinin olmadığı üzə çıxıb. Bəlli olub ki, Eynşteynin nəşinin olduğu Princeton Universitetinin xəstəxanasına icazə almadan girən Tomas Harvey onun beyninin bir hissəsini götürüb. Həmin hissə hazırda Filadelfiyadakı Mutter Muzeyində sərgilənir. 2011-ci ildə muzeyə gətirilən beyin 46 hissədən ibarətdir. Eynşteynin beyninin boz rəngli maddəsi muzeydə ən çox diqqət çəkən eksponatdır.



# Dünyanın ən xoşbəxt anaları Norveçdədir

**Dünyanın ən xoşbəxt analarının Norveçdə, ən bədbəxt analarının isə Somalidə yaşadığı açıqlanıb. Ən böyük qlobal uşaq haqları təşkilatı olan "Save the Children"ın ("Uşaqları qoruyun") 179 ölkədə apardığı araşdırma nəticəsində maraqlı faktlar əldə edilib.**

"Dünyada anaların vəziyyəti" adlı araşdırma proqramının nəticələri bir neçə gün əvvəl açıqlanıb. Anaların həyat şərtləri, gəlirləri, təhsilləri, siyasətə təsiri, ana ölümləri və doğuş statistikası nəzərə alınmaqla aparılan təhqiqat müəyyən edib ki, ən xoşbəxt analar Norveçdə yaşayır. Ötənilki araşdırmalarda isə Finlandiya ilk sırada idi. Bu il ikinci sıraya düşən Finlandiyanı İsrail, Danimarka, İsveç, Hollandiya, İspaniya, Almaniya və Avstriya təqib edir.

Araşdırmalar göstərib ki, Haiti, Çat, Fil Dişi Sahilləri, Çat, Qambiya, Niger, Mali, Mərkəzi Afrika Cümhuriyyəti, Konqo Cümhuriyyəti sonuncu sıralardadır. Somali anaları isə xoşbəxt anaların siyahısında sonuncu sıradadır.





# Cinayətkar 50 il sonra tapıldı

**1959-cu ildə amerikada yatdığı həbsxanadan qaçan 79 yaşlı qaçaq Florida ştatında ələ keçib. Son 20 ildir Floridada fərqli bir adla yaşayan cinayətkarın ələ keçirilməsi üçün polislər gizli plan hazırlayıblar. Frank Frevaters adlı qaçaqdan rəsmi sənədlər kimi görünən kağızları imzalamasını istəyən polislər götürdükləri barmaq izləri ilə araşdırma aparmağa başlayıblar. Barmaq izlərini müəyyənləşdirdikdən sonra 1 həftə təqib edilən kişini yolda ələ keçirən polislər ona gəncliyində çəkilmiş şəklini göstəriblər və onu tanıyıb-tanımadığını soruşublar. Şəkildəki şəxsi əvvəlcə tanımadığını deyən yaşlı qaçaq daha sonra əllərini qaldıraraq "yaxşı, tapdınız" deyərək təslim olub.**

F.Frevaters 1957-ci ildə törətdiyi avtomobil qəzasında bir nəfəri öldürdüyü üçün həbs edilmişdi.




**QOÇ** - Daxili orqanlarınıza diqqəti artırın. Əgər mədənizlə bağlı sancmalarınız varsa, həkimə müraciət edin. Fiziki rahatlığınızı təmin etmək üçün daha çox yataqda uzanmalısınız. Qalan şeylər düzələr.

**BUĞA** - Gün ərzində hər şey çıxardığınız qərarlardan asılı olacaq. Xüsusən də iş prinsipində kənar mövqeləri mütləq nəzərə almalısınız. Günün ikinci yarısında sənədləşdirmə işlərində yanlışlığa yol verməyin.

**ƏKİZLƏR** - Ailə üzvlərinizə qarşı qayğıkeş və mərhəmətli olun. Əgər onların arasında xəstə olanı varsa, hamıdan çox siz ürək yandırın. Axşama yaxın büdcənizin artacağı da gözlənilir. Bədxərclik etməyin.

**XƏRÇƏNG** - Ayın əvvəlindən reallaşdıra bilmədiyiniz planlara görə məyusluq keçirməkdənsə, əzmkarlığınızı artırın ki, boşluqlar aradan qalxsın. Ən azından bu gün mütləq həyatınızda yenilik olmalıdır.

**ŞİR** - Hiss olunur ki, dünəndən bəri səhhətinizlə bağlı yüngül problem yaranıb. Odur ki, özünüzü qoruyun. İndi sizə qapalı yerdə çox oturmaq olmaz. Yeni işlə bağlı məramlarınızı mümkün qədər təxirə salın.

**QIZ** - Ailə üzvlərinizlə, eləcə də digər yaxınlarınızla mübahisələriniz gözlənilir. Bu səbəbdən də çılğın olmayın. Hər bir anlaşılmazlığı dözüm və səbrlə yoluna qoyun. Yeməyinizə də fikir verin.

**TƏRƏZİ** - Yaxşı olar ki, bütün planlarınızı saat 16-ya qədər başa çatdırasınız. Əks təqdirdə, sonrakı vaxt düşərli olmayacaq. Ulduzlar deyir ki, içinizdəki şübhələrdən qurtulmayınca, xilasınız çətin olacaq.

**ƏQRƏB** - Daxili narahatlığınız günün ikinci yarısından etibarən aradan qalxacaq. Amma bu təqvimdə fiziki işləri kifayət qədər azaltmağınız məsləhətdir. Əks təqdirdə, səhhətiniz pisləşəcək. Kalorili qidalara üstünlük verin.

**OXATAN** - Bəri başdan əmin ola bilərsiniz ki, bu gün ulduzlar maddi rifah halınızı yüksəldəcək. Bu istiqamətdə bütün mümkün variantlardan yararlanmalısınız. Uzaq səfərlərə isə çıxmağa tələsməyin.

**OĞLAQ** - Ətraf mühitin sərtliyinə qarşı acizlik nümayiş etdirməyin. Ən azı ona görə ki, bu hal sizdə bədbinlik yarada bilər. Fəallığınızı artırın. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**SUTÖKƏN** - Sizə elə gəlməsin ki, ünsiyyətdə olduğunuz adamların hamısından ağıllısınız. Bu təkəbbür sizi gözdən sala bilər. Gün ərzində daha sadə, daha mülayim olun. Əcnəbilərlə işbirliyinə getməyin.

**BALIQLAR** - Yeni görüşləriniz məqsədlərinizə yaxınlaşmaqda sizə yardımçı olacaq. Qarşı tərəfin ədalətli təkliflərini qəbul etməyə hazır olun. Bu gün yalan danışmaq və ya vəd vermək sizə əziyyət verə bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Kompüterin qurbanı oldu



Çində daha bir nəfər kompüter oyununun qurbanı olub. Anxoş əyalətinin sakini 14 sutka "World of Warcraft" oyununu oynadıqdan sonra özündən gedib. 21 yaşlı Syamou soyadlı gənc düz iki həftə internet kafedə oyun oynayıb. O, demək olar ki, bu müddətdə kompüter arxasından qalxmayıb, yeməyi belə nadir hallarda yeyib, duş qəbulundan isə ümumiyyətlə imtina edib. İki həftədən sonra mağazaya getmək istəyib. Lakin ayağa duranda müvazinətini saxlaya bilməyib. Kafe işçilərinin sözlərinə görə, o pis qoxuyurdu. Kafedən birtəhər çıxan gənc özündən gedib. Dərhal həkimə xəbər verilib. Lakin gənc həkimlərin ona müdaxiləsinə imkan verməyib və ona internet tapılmasını istəyib. "Mən internetdən istifadəyə davam etmək istəyirəm" - deyən gənci özünə gətirən həkimlər hadisə yerini tərk etməyə məcbur olublar.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300